QARABAĞ AZƏRBAYCANDIR!

## Heydər Əliyev ideyaları əbədiyaşardır!



11

Səs

№ 191 (6632) 19 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev diplomatiyasının Astana gedişi



2



## Corc Soros Ermənistana və Qarabağ separatçılarına nə qədər vəsaitlər ayırıb?

13

## Hər gün qələbə soraqlı 44 günlük Vətən müharibəsi



3

## Çıxış yolu asan olmayan ENERJİ BÖHRANI




7

## Dollar əvəzinə yuan?



10

## Erməni politoloqu: "Yaxınlarda Rusiyanın sərt bəyanatları olacaq"



9

## Ermənistan sərhədə qoşun yığır: Zəngəzur dəhlizində nə baş verir?



## ŞOK: 9 ayda yol qəzalarında 143 nəfər ölüb!



16

# Prezident İlham Əliyev diplomatiyasının Astana gedişi

## Azərbaycan Prezidenti Ermənistana xəbərdarlıq edib: "Biz səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var"

**Bəli, İlham Əliyev təkcə müstəqil Azərbaycanın Prezidenti və Müzəffər Ali Baş Komandanı deyil, həm də müasir dünyanın görkəmli dövlət xadimlərindən, xarizmatik liderlərindən, mahir diplomatlarından biri olmaqla beynəlxalq aləmdə sözü imzası qədər dəyərlidir. Bu, Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzunun göstəricisidir. Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Astanada keçirilən MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışı bir daha beynəlxalq aləmdə sözünün imzası qədər dəyərli olduğunu göstərdi.**



### Yeni Qafqaz reallıqları: **Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib**

Oktyabrın 14-də Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlət Başçıları Şurasının videokonfrans formasında keçirilən iclasında hər zaman və hər məkanda Azərbaycanın haqq səsini dünyaya çatdıran Prezident İlham Əliyev bu dəfə də zəfər nitqi ilə çıxış edərək bildirdi ki, bütövlükdə, postmünaqişə dövrü sakit keçir: "Ona görə "postmünaqişə dövrü" deyirəm ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib".Ölkə başçısı çıxışı zamanı görülən işləri hazırlıq adlandıraraq xüsusi olaraq vurğuladı ki, biz münaqişənin danışıqlar yolu ilə həll edilməsi üçün əlimizdən gələni etsək də, faktiki müharibə şəraitində yaşayan bir dövlət kimi, baş verə biləcək hər hadisəyə hazırlıqlı olmalı idik. Azərbaycan Prezident İlham Əliyev çıxışında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin hərbi əməliyyatların dayandırılmasındakı rolundan bəhs edərək xüsusi olaraq bildirdi ki, bu təşəbbüs minlərlə insanın ölümünün qarşısını almağa imkan yaratdı. 10 noyabr üçtərəfli Bəyanatı ilə Kəlbəcər, Laçın və Ağdam rayonları bir güllə belə atılmadan erməni terrorçularından təmizləndi. Həmçinin, dövlətimizin başçısı MDB dövlətləri liderlərinə hazırda ölkəmizdə davam edən bərpa-quruculuq işləri ilə bağlı da məlumat verdi. Bildirdi ki, müharibə bitəndən, torpaqlarımız işğaldan azad edildəndən sonra bizim əsas məqsədimiz 30 il müddətində xüsusi amansızlıqla dağıdılan, məhv edilən şəhər və kəndlərimizi yenidən dirçəltmək, bu yerlərə həyatı qaytarmaqdır. Lakin əlbəttə ki, qarşımızda duran ən önəmli problem mina xəritələrinin bizə verilməməsidir. Bu da düşmənin növbəti insanlıq cinayətidir. Düşmən müharibədəki məğlubiyyətini qəbul edib, kapitulyasiya aktına imza atdıqdan sonra belə, yalvararaq bizdən aldığı möhləti yenə öz iyrənc əməllərini boşaltdığı ərazilərə pərakəndə şəkildə mina səpələməklə keçirdi: "Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir. Azərbaycana verilmiş az sayda xəritələrin dəqiqliyi təqribən 25 faizdir".

### Ermənilər özləri də yaxşı bilirdi ki, bu ərazilər Azərbaycana məxsusdur və tarixi ədalət öz yerini tapacaq

Dövlət başçısı erməni vandallarının torpaqlarımızda törətdiyi insanlıqdan kənar vəhşiliklərlə bağlı bildirdi ki, ermənilər heç vaxt bu torpaqlarda yaşamaq, yaratmaq niyyətində olmayıblar: "Çünki onlar özləri də yaxşı bilirdi ki, bu ərazilər Azərbaycana məxsusdur və tarixi ədalət öz yerini tapacaq: "Azad edilmiş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qismən dağıdılmış qalan iki məsciddə işğalçılar donuz və inək saxlayır, müsəlmanların heysiyyətini qəsdən təhqir edirdilər. Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faiz dağıdılıb. Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşdiri. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. Şuşa şəhərində işğala qədər mövcud olan 17 məsciddən 16-sı Ermənistan tərəfindən dağıdılıb".

### Azərbaycanın mövqeyi aydın, addımları qətiyyətlidir

Bəli, bu gün zaman, həqiqətən, Azərbaycanın xeyrinə işləyir. Beynəlxalq ekspertlərin fikrincə, zamanın bu istiqamətə yönəldilməsində Azərbaycanın apardığı ədalətli siyasətin və uğurlu diplomatiyanın da rolu böyükdür. Rrusiyalı ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko isə daha da irəli gedərək xəbərdarlıq edir ki, Rusiya Ermənistanın inkişafını təmin etməyəcək və dotasiya ayırmayacaq. Bu, suveren ölkədir.İqor Korotçenko Azərbaycan Ordusunun müxtəlif istiqamətlərində yerləşən mövqelərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən intensiv atəşə tutulmasına da münasibət bildirib: "Ermənistan tərəfinin silahlı təxribatında məqsəd Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını pozmaqdır. Tamamilə aydındır". Bir sözlə, ekspertlərin sözlərinə əsasən aydın şəkildə Azərbaycan rəhbərliyinin əməkdaşlıq, sülh danışıqları və sərhədlərin delimitasiyası mövzularında açıq və hamının başa düşəcəyi səviyyədə mövqe sərgiləməsinin əksinə olaraq, Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasını pozmaq niyyətini gizlətmir. Məsələn, Avropa İttifaqı Şurası rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçirilən görüşündən sonra aydın olmuşdu ki, sülh müqaviləsinin imzalanması artıq son mərhələdədir. İş o yerə çatıb ki, təkcə Ermənistan rəhbərliyi deyil, onlara himayədarlıq etmək istəyənlər də hərdəmxəyallıqdan , "gah nala, gah mıxa vurmaq" xəstəliyindən əziyyət çəkirlər.

### Azərbaycan Prezidenti Makrona etiraz, Ermənistana xəbərdarlıq etdi: **"Adekvat tədbirdən başqa seçimimiz qalmayacaq"**

Dövlət başçısı çıxış zamanı Fransa prezidentinin riyakarlıq, ikiüzlülük, yeni başqa sözlə, ermənilik etdiyini bildirib. Və qeyd edərək vurğulayıb ki, Azərbaycan dördtərəfli görüşün, o cümlədən Fransa Prezidentinin iştirakı ilə keçirilməsinə razılıq verməsinə baxmayaraq, - Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur, bəli, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik missiyası var idi, lakin Qarabağ münaqişəsi nizamlandığına görə Minsk qrupunun xidmətinə heç bir ehtiyac yox idi, özü də bu xidmətlər, artıq dediyim kimi, əgər belə demək mümkündürsə, faydadan daha çox ziyan gətirən xidmətlər idi, Minsk qrupu heç bir iş görməyib, ərazimizin bir santimetr torpağı belə azad edilməmişdi, - Azərbaycan xoş məram göstərərək, Fransa Prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi. Avropa İttifaqı Şurası Prezidentinin iştirakına gəlincə, bildiyiniz kimi, Brüsseldə artıq bir neçə üçtərəfli görüş keçirilib və prinsipcə, biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması işində Avropa İttifaqının səylərini həmişə dəstəkləmişik. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş mərama baxmayaraq, Praqadakı görüşdən demək olar bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə apardı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək, ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük. Azərbaycan Prezidenti Makronun yalançılığını da konkret faktla göstərdi:"Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa Prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədi ilə tədbir görüləcək. Lakin bunun, yumşaq desək, doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu. Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu".Bir sözlə, dövlətbaşçısı bütün bunlara rəğmən hələ ki, səbir nümayiş etdirdiyini bildirərə söyləyib ki, lakin bunun da bir həddi var: "İki vacib bənd icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz olmayacaq!". Bir sözlə, bu məsələyə olduqca açıq və sərt münasibət bildirən dövlət başçımız çıxışında xatırlatdı ki, Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Parisin hər hansı rol oynaması qətiyyən mümkün deyil. Yeni Azərbaycan böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq, heç bir ölkə ilə üstüörtülü, müəmmalı danışıqlar aparmır. Həmişə mövqeyimiz aydın, addımlarımız isə qətiyyətlidir. Çünki Azərbaycanın dövlət başçısının sözü ilə əməli birdir, dediyini edəndir!

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev M.N.İmanovanın Azərbaycan Elm Fondunun İcraçı direktoru təyin edilməsi haqqında Sərəncam verib. Sərəncamla Mehriban Natiq qızı İmanova Azərbaycan Elm Fondunun İcraçı direktoru təyin edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Cəfər Əbdülhüseyn oğlu Hüseynzadənin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Rəşad Fəxrəddin oğlu Aslanovun Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# Hər gün qələbə soraqlı 44 günlük Vətən müharibəsi

## İlham Əliyev:"Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik"



"Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" hesabında bildirib. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində artıq bu günə qədər bir neçə işğal altında olan kənd və qəsəbələrimiz, şəhərlərimiz azad olunmuşdur. Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan əks-hücum əməliyyatları öz nəticəsini verməkdə idi. Əlbəttə ki, 27 sentyabrdan oktyabrın 19-na kimi Ermənistanın itkilərinin sayı-hesabı yox idi. Düşmənin maddi itkisinin 1 milyard dollardan çox olması rəsmi mənbələrdə qeyd olunsa da, real itkilər rəsmi elan edilən rəqəmlərdən dəfələrlə artıq idi. İki dəfə humanitar atəşkəsin elan edilməsinə baxmayaraq, Ermənistan atəşkəsin şərtlərini kobud şəkildə pozduğu üçün layiqli cavabını alırdı. "Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri - bunu gizlətmirəm, özü tuşlanan "Spike" raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir "S-300" zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bunu 2020-ci ilin 19 oktyabr tarixində Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibəsində bildirmişdi.

### "MOSKVA DANIŞIQLARINDAN SONRA AZƏRBAYCANIN ÖZ ÜZƏRİNƏ GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRƏ ƏSASLANMIŞIQ"

Baş verənlərin fonunda Ermənistan hər gün sarsıdıcı zərbələrin hədəfində olur, geri çəkilməyə başlayır, maddi-texniki bazası durmadan zəifləyir və şəxsi heyəti tamamilə zərərsizləşdirilirdi. "Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və buna hazırlaşırdıq", - deyə Prezident İlham Əliyev müsahibəsində atəşkəslə bağlı suala cavabında bildirmişdi. Ermənistan atəşkəs rejimini kobud şəkildə pozduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib ki, danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi: "Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar həddsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

### "DÜNYA BİRLİYİNİN BU QANLI CİNAYƏTİ BİR SƏSLƏ PİSLƏMƏSİ O DEMƏKDİR Kİ, BU, ERMƏNİLƏRƏ BAHA BAŞA GƏLƏCƏK"

Azərbaycan Prezidenti qeyd edib ki, bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. "İki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər", - deyə Prezident İlham Əliyev vurğulamışdı.

Əlbəttə ki, müharibənin gedişi deməyə əsas verirdi ki, düşmən döyüş meydanında çox böyük itkilər verərək uduzmuş dövlətə çevrilirdi. Vətən müharibəsi Azərbaycanın böyük Zəfəri ilə bitdi. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə idi ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 44 günlük müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız nəhayət, qələbəyə çatdı. Noyabrın 10-u ölkəmiz üçün tarixi bir gün oldu. Rəşadətli Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi zəfər Ermənistana masa arxasında oturmağa məcbur etdi. Nəhayət, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyənat imzaladılar. Bu sənəd Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Razılaşmanın şərtlərinə əsasən, Ermənistan Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağını öhdəsinə götürdü.

### DÜNYA GÖRDÜ Kİ, AZƏRBAYCAN XALQI HEÇ VAXT MƏĞLUBİYYƏTLƏ BARIŞMAYACAQ

Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu qələbə xalqın inamını bir daha özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

*Zümrüd BAYRAMOVA*



TƏRS BAXIŞ

## Ermənistan Cənubi Qafqazda Rusiyaya qarşı yeni cəbhə açır?

### İrəvanın bu çərçivədəki cəhdləri bəllidir: Cənubi Qafqaz regionunda aparıcı güclər olan Bakıya, Ankaraya, Moskvaya və Tehrana ABŞ və Fransa vasitəsi ilə təzyiqlər göstərməyə nail olmaq

**Son vaxtlar Ermənistan rəhbərliyinin Rusiyaya qarşı təhlükə yarada biləcək diplomatik fəallığı müşahidə olunmaqdadır. Misal üçün, Ermənistanın baş naziri Nikol Paşinyan BMT-nin Baş Assambleyası sahələrində NATO-nun baş katibi Yenis Stolterbenqlə, Parisdə isə Fransanın prezidenti Emmanuel Makronla görüşündə Ermənistana müşahidəçilər missiyasının göndərilməsi təklifini irəli sürüb. Artıq o da məlumdur ki, həmin təklif Fransanın müdafiə nazirinin simasında müsbət qiymətləndirilib. Diqqət edək ki, təklif məhz hərbi struktur tərəfindən nəzərə alınıb və erməni baş nazirinin NATO rəhbərliyi ilə də müzakirəsi bu konteksti əhatə edir. Hansı ki, missiyanın "mülki" adlandırılması da həmin məsələdə bir sıra təzadlı suallar yaratmaqdadır.**

Bunun ardınca isə Ermənistanın parlament divarları arasında sözügedən müraciət səsləndirilib və yenidən "ATƏT və ya BMT-dəki beynəlxalq partnyorların Ermənistan-Azərbaycan sərhədlərində yerləşdirilməsi" təklif olunub. Və burada "ATƏT, yaxud BMT" deyərkən məhz Fransa və ABŞ nəzərdə tutulub. İrəvanın bu çərçivədəki cəhdləri bəllidir: Cənubi Qafqaz regionunda aparıcı güclər olan Bakıya, Ankaraya, Moskvaya və Tehrana ABŞ və Fransa vasitəsi ilə təzyiqlər göstərməyə nail olmaq. Amma ola biləcəkmi..? Yaxud, gəlin görək ki, Ermənistanın cəhdləri nə qədər uğura hesablanıb və ümumiyyətlə, bu cəhdlərdən uğur əldə edə biləcəkmi?

Rəsmi Moskva: "Bütün regiondan kənar oyunçular Cənubi Qafqazda qeyri-sabitlik situasiyasını yaratmağa çalışırlar"

Məsələn, Rusiyanın reaksiyası özünü çox gözlətmədi. Moskva Paşinyanın ideyasına qarşı çıxdı və ölkəsinin XİN sözçüsü Mariya Zaxarova "beynəlxalq müşahidəçilərin" Ermənistanla Azərbaycan sərhədlərində yerləşməsinə qarşı çıxış etdi.

"Üçtərəfli razılaşmanın fəaliyyət göstərən reallığını başqa



hər hansı fəaliyyətlə əvəzləmək olmaz. Bütün regiondan kənar oyunçular Cənubi Qafqazda qeyri-sabitlik situasiyasını yaratmağa çalışırlar", Kremlin xarici siyasət idarəsinin rəsmisi Zaxarova vurğulayıb.

Yunanıstana verilən vəzifə - Afina nəinki Şərqi Aralıq dənizi regionunda Türkiyəyə qarşı, həm də paralel olaraq Cənubi Qafqazda Ermənistana dəstək göstərməklə regiondakı gərginliyi yüksək həddə saxlamalıdır

Ancaq buna baxmayaraq, Ermənistana açıq havadarlıq edən və regiona aidiyyatı olmayan daha bir tərəf - Vaşinqton və Parisin əllərində əsas kozırlardan olan və İrəvanın maraqları üçün istifadə edilən rəsmi Afina da ortaya çıxıb. Belə ki, Yunanıstanın xarici işlər naziri Nikos Dendias İrəvana səfər edib və orada regionun hərbi-siyasi situasiyası müzakirə olunub. Buradan da aydın görünür ki, əslində Yunanıstan üzərinə belə bir vəzifə qoyulub - bu ölkə nəinki Şərqi Aralıq dənizi regionunda Türkiyəyə qarşı, həm də paralel olaraq Cənubi Qafqazda Ermənistana dəstək göstərməklə regiondakı gərginliyi yüksək həddə saxlamalıdır.

Bütün bunların KTMT-yə üzv ölkədə - Ermənistanda baş verməsi və NATO ölkələri missiyasının sonrakı fəaliyyətinin hansı istiqamətdə davam edəcəyi sonrakı hadisələrin cərəyanından da aydın olacaq. Artıq hakim "Vətəndaş sazişi" partiyasının parlament fraksiyasının təmsilçisi Qagik Melkonyan KİV-lərə açıqlama verərkən bildirib ki, ölkəsinin KTMT-dən çıxması üçün müzakirələr aparılır.

Beləliklə, açıq-aydın görünür ki, Ermənistan Cənubi Qafqazda Vaşinqton-Paris-Afina geosiyası oxunun mərkəzinə çevrilib və belə görünür ki, həmin üçlü destabillik faktoru regionun mövcud təhlükəsizlik arxitekrurasını demontaj etməsinə hesablanıb. Habelə, Ermənistan belə bir vasitə ilə regionda Rusiyaya qarşı ikinci cəbhənin açılmasına cəhd edir.

***Rövşən RƏSULOV***

# Zəfər Forumu növbəti dəfə Gəncə şəhərində keçirilib



***Biləsuvarda start götürən Zəfər Forumu növbəti dəfə Gəncə şəhərində keçirilib. SİA xəbər verir ki, tədbirə şəhid ailələri, rəsmilər, Vətən müharibəsi iştirakçıları qatılıb. Zəfər Forumundan öncə Gəncənin Şəhidlər Xiyabanı ziyarət olunub. Forum iştirakçıları adından əbədi məşəl Kompleksinə əklil qoyulub, torpaqlarımızın işğaldan azad edilməsi üçün canlarından keçən şəhidlərimizin xatirəsi bir daha dərin hörmətlə yad edilib. Ardından Gəncə Dövlət Filarmoniyasında forum işinə başlayıb.***





Şəhid ailələri və rəsmilər, Vətən müharibəsi iştirakçıkarı forumla bağlı ürək sözlərini yazıb və uğurlar arzulayıb. Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Forum Dövlət Himninin səsləndirilməsi və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bötövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməklə öz işinə başlayıb.

Bildirilib ki, Zəfər Forumunun Gəncə şəhərində keçirilməsi təsadüfi deyil. 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhəri erməni təcavüzkarlarının xaincəsinə törətdikləri terrorlara qarşı sarsılmaz dözüm və qəhrəmanlıq nümayiş etdirib.

Zəfər forumlarının bütün ölkəni əhatə edəcəyini, qazandığımız Zəfər haqqında yerlərdə insanların, xüsusilə gənc nəslin illər keçdikdə daha dolğun məlumatlanmasına şərait yaradılacağı qeyd olunub. Forumda həmçinin Milli Qəhrəman valideynlərinin, şəhid ailələrinin və müharibə iştirakçılarının çıxışları dinlənilib.

Forumda hərbi vətənpərvərlik musiqiləri ifa olunub, bəzi səhnələr nümayiş etdirilib. Sonda Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiramlarını bildiriblər. Qeyd edək ki, növbəti forumlar Ağstafa, Qusar, Ağdam, İsmayıllı, Sabirabad və Bakıda keçiriləcək.



# Müasir çağışırlara cavab verən gənclik

## İlham Əliyev: "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır"

Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyini qeyd edirik. "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını proqramında irəli sürən YAP məhz Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin həyata keçirilməsində yaxından iştirak etməklə, dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsinə böyük töhfələr verdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin, şərəfli yol keçdi. Məlum olduğu kimi, 1988-ci ildən başlayaraq, Azərbaycanda hakimiyyət uğrunda ciddi mübarizə gedirdi. Hakimiyyətə gələnlər ölkəni idarə edə bilmir, qısa zamanda hakimiyyətdən gedir və onları başqaları əvəz edirdi. Xüsusilə də, 1988-1992-ci illərdə baş verən Qarabağ münaqişəsi də ölkədə ciddi sosial və iqtisadi, o cümlədən hərbi-siyasi xaos yaratmışdı. Hakimiyyətin səriştəsizliyi səbəbindən respublikada qarşıdurmalar artıq vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Azərbaycan 1991-ci il 18 oktyabrda müstəqilliyini yenidən bərpa etmişdir. Lakin hadisələr də bu reallığı təsdiqlədi ki, müstəqilliyi qorumaq onu əldə etməkdən də çətindir. Belə bir zamanda xalqın ümid yeri Ulu Öndər Heydər Əliyev idi. Həmin çətin zamanlarda Ulu Öndər Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışırdı. 1992-ci il 16 oktyabrda 91 nəfər ziyalı Ulu Öndər Heydər Əliyevə müraciət etdilər və həmin müraciətə cavabı çox gecikmədi. Elə 1992-ci il 26 oktyabr tarixində Heydər Əliyev həmin müraciətə müsbət cavab verdi. 1992-ci ilin 21 noyabrında Naxçıvanda əlverişsiz bir şəraitdə Azərbaycanın bütün bölgələrindən 550 nümayəndənin iştirakı ilə YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər yeni yaradılan partiyanın Sədri seçildi. Heydər Əliyevin Sədrliyi ilə YAP qısa zaman kəsiyində, təxminən 6 ay sonra hakimiyyətə gəldi.Hər zaman cəmiyyətdə yeniliyin və müasirliyin tərəfdarı, təşəbbüskarı kimi çıxış edən YAP müasir dövrdə beynəlxalq arenada tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında böyük nüfuz sahibidir. Sözsüz ki, partiyanın yüksək nüfuzu bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur.

YAP cəmiyyətin öncül siyasi qüvvəsi kimi Azərbaycanın inkişafı, onun dünya birliyində mövqeyinin möhkəmlənməsi, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşaması yolunda böyük qətiyyət və əzmkarlıqla fəaliyyət göstərir. YAP-ın fəaliyyət mexanizminin əsaslarını təşkil edən mühüm prinsiplərdən biri güclü dövlət anlayışıdır. Bu güclü dövlət anlayışı isə həm dövlətin iqtisadi qüdrətinin artırılmasını, həm də vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasını özündə ehtiva edir.

### YAP-IN ƏTRAFINDA BÖYÜK GƏNCLƏR ORDUSU BİRLƏŞİB

Cəmiyyətin bütün təbəqələrindən olan insanları özündə birləşdirən YAP-ın ətrafında böyük gənclər ordusu var. YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşıb və Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirib. Əgər Ümummilli Lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsi diqqət mərkəzində idisə, Azərbaycan müstəqillik qazandıqdan sonra, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra onların dövlət idarəçiliyində irəli çəkilməsi prioritet məsələ oldu.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə



Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər Heydər Əliyev böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkirdi. Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən Heydər Əliyev müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə müvafiq sənədlər imzalayıb. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Yaradılmış yeni nazirlik gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılmasını təmin etdi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi.

### "HƏR BİR AZƏRBAYCAN GƏNCİ HƏR ŞEYDƏN ÇOX, HƏR ŞEYDƏN ARTIQ MÜSTƏQİL AZƏRBAYCANIN BU GÜNÜ, GƏLƏCƏYİ HAQQINDA DÜŞÜNMƏLİDİR"

Gənclər hərəkatının təşkilatlanması istiqamətində dövlətin dəstəyi bu istiqamətdə öz bəhrəsini verdi. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumları keçirilmişdir. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Təşkil olunan forumlardakı Ulu Öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Ulu Öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərman müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratmışdır. 2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Ümummilli Liderin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə dəyişməsinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi. Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir", - deyən Ulu Öndər Heydər Əliyevin bu fikri dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla daim aktualdır və gəncləri Azərbaycanın sabahı naminə səfərbər edir. Həyata keçirilən çoxsaylı layihələrin bir qismi gənclərin bilik səviyyəsinin yüksəldilməsinə, liderlik keyfiyyətlərinin formalaşdırılmasına xidmət edir. YAP həm də gənclərin seçkilərdə və digər ölkə əhəmiyyətli proseslərdə fəal iştirakını təmin etmək üçün seçkiqabağı dövrlərdə çoxsaylı tədbirlər keçirir. Eyni zamanda, təşkilatın bir sıra nüfuzlu dövlətlərin hakim partiyalarının gənclər təşkilatları ilə sıx əməkdaşlıq etməsi Azərbaycan gənclərinin beynəlxalq aləmə inteqrasiyası baxımından çox önəmli faktordur. Bütün bunlar isə perspektiv baxımından böyük uğurlar vəd edir. Bu gün gənclər layiqli vətəndaşlar kimi yetişirlər və bu da gələcəyə nikbinliklə baxmağa tam əsas verir. Yeni Azərbaycan Partiyasının gəncləri ölkəmizdə həyata keçirilən uğurlu siyasətin təbliğatında fəal iştirak edirlər.

### "ANCAQ ONU DA BİLDİRMƏLİYƏM Kİ, ƏSAS YÜKÜ, ƏSAS VƏZİFƏNİ GƏNC NƏSİL YERİNƏ YETİRDİ"

Son 19 ildə görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Bu gün Azərbaycan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişaf dövrünü yaşayır. Gənclərimiz Cənab Prezidentin tövsiyəsi əsasında öz bilik və bacarıqlarını genişləndirərək, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb ölkəmizin inkişafına töhfə verməkdədirlər. Gəncliyin inkişafında "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi gənclərin fəaliyyətin stimullaşdırılmasında növbəti mərhələ oldu. Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri etdiyindən gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət başçısı 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Daha sonra Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açıb.

YAP Gənclər Birliyi də bu gün istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür. Partiyanın rəhbər tutduğu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında Azərbaycan gəncləri arasında vətənə sevgi, ölkə sərhədlərindən kənarda Azərbaycanı layiqincə təmsil etmək, milli-mənəvi dəyərlərimizi qorumaq təbliğ olunur. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir.

Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən ictimai, sosial, mədəni, siyasi xarakterli layihələrdə uğurla təmsil olunan YAP gəncləri dövlətin daxili və xarici siyasətinin gənclər arasında təbliği, gənclərin qarşılaşdıqları problemlərin həllinə həssas münasibət, asudə vaxtlarının səmərəli təşkili və ümumilikdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində üzərinə düşən missiyanı layiqincə yerinə yetirməyə çalışır. Hər zaman olduğu kimi, bu gün də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri partiyanın Sədri, ölkə Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyir və bu siyasəti ölkə ictimaiyyəti, o cümlədən, gənclər arasında təbliğ edirlər.

Azərbaycan gənclərinin rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla bağlı demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər". Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Dövlətin gənclərə göstərdiyi diqqət və qayğı, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır".

*Nəzakət ƏLƏDDİNQIZI*

# “YAP 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçib”

## Mingəçevirdə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib

**Oktyabrın 18-də Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Mingəçevir Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər. Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.



Tədbirdə çıxış edən YAP Mingəçevir şəhər təşkilatının sədr müavini Bəxtiyar Mustafayev bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiyanın 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini deyən B.Mustafayevin sözlərinə görə, bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir. ”Azərbaycan xalqı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti tam dəstəkləyir. Regionun güc mərkəzinə çevrilən Azərbaycan dövlətinin nailiyyətlərinin arxasında vətəndaş həmrəyliyi və uğurlu dövlət siyasəti dayanır. 44 günlük Vətən müharibəsinin möhtəşəm zəfərimizlə başa çatmasının əsasında da məhz bu həmrəylik və vətəndaşlarımızın Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləməsi dayanır”, - deyən B.Mustafayev YAP Mingəçevir şəhər təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi təşkilatlarının sayı 65-ə, üzvlərinin sayı 8 min 106 nəfərə çatıb.





Çıxış edən Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov deyib ki, ölkədə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu çıxış edərək bildirib ki, partiyamızın fəaliyyətinin əsasında Heydər Əliyev ideyaları dayanır. YAP-ın Azərbaycan xalqının çətin sınaqlarla üz-üzə qaldığı bir dövrdə yarandığını xatırladan E.Mirbəşiroğlu qeyd edib ki, həmin dövrdə ulu öndər Heydər Əliyev tarixi missiyanı öz üzərinə götürərək dövlətçiliyimizi məhv olmaqdan xilas etdi. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz, o cümlədən Yeni Azərbaycan Partiyası davamlı olaraq inkişaf edir. Ötən il keçirilən VII qurultay isə partiyamızın həyatında yeni mərhələnin əsasını qoyub. Milli Məclisin deputatı Aydın Mirzəzadə də çıxışında YAP-ın ölkəmizin ictimai-siyasi həyatında rolundan danışaraq partiyamızın alternativsiz siyasi qüvvə olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu gün sıralarında 800 minə yaxın insanı birləşdirən partiyamız öz gücünü xalqdan alır.

Tədbirdə, həmçinin YAP Mingəçevir şəhər təşkilatının veteran üzvü Cavanşir Yusubov, ”Tələbə” Poliklinikasının baş həkimi Nurcamal Əsgərova və Qarabağ müharibəsi, Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Mingəçevir şəhər şöbəsinin sədr müavini, qazi Pərviz Məmmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan ətraflı bəhs ediblər. Çıxışlarda 44 günlük Vətən müharibəsindən danışılıb, torpaqlarımızın işğaldan azad edilməsi yolunda bir çox qəhrəman vətəndaşlarımız kimi YAP üzvlərinin də şücaət göstərdikləri, bu yolda canlarını qurban verdikləri diqqətə çatdırılıb. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib tərəqqi yoluna çıxardığı Azərbaycan hazırda Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, yeniləşən, müasirləşən ölkəyə çevrilib. Tədbirin sonunda Mingəçevir şəhərinin ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

# YAP Xocalı rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə konfrans keçirib

**Dünən Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə partiyanın Xocalı rayon təşkilatı tərəfindən konfrans keçirilib. Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Goranboy rayon Aşağı Ağcakənd qəsəbəsindəki abidəsi və ”Xocalı soyqırımı” abidəsi ziyarət edilib. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**






YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev ”Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yol və əldə olunmuş uğurlar” mövzusunda məruzə ilə çıxış edib.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranan siyasi təşkilatdır. Yeni Azərbaycan Partiyası dövlətimizi və xalqımızı düçar olduğu bəlalardan xilas edərək dövlət müstəqilliyimizin dönməzliyini və əbədiliyini təmin edib. Onun sözlərinə görə, əldə olunmuş bütün uğurların təməli ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra qoyulub.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan-Fransız Universitetinin icraçı direktoru Vazeh Əsgərov isə çıxışında bildirib ki, Heydər Əliyev ideyaları əsasında fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin inkişafı və vətəndaşlarımızın rifahı üçün çalışan, daim xalqın yanında olan partiyadır.

Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov Yeni Azərbaycan Partiyasının Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza atdığını, zəngin və şərəfli inkişaf yolu keçdiyini diqqətə çatdırıb. O, YAP-ın xalqın dəstəyi əsasında möhtəşəm qələbələr qazandığını və ümumxalq partiyasına çevrildiyini vurğulayıb. Tədbirdə, həmçinin partiya fəalı, Xocalı rayon Meşəli kənd tam orta məktəbinin müəllimi Sabir Qasımov və Xocalı şəhər 4 nömrəli tam orta məktəbin müəllimi Şahnaz Əliyeva çıxış edərək Yeni Azərbaycan Partiyasının nailiyyətlərindən bəhs ediblər. Sonda bir qrup partiya fəalına ”Təşəkkürnamə” təqdim edilib, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri verilib.

# Çıxış yolu asan olmayan ENERJİ BÖHRANI

**Avropada enerji böhranının öhdəsindən necə gələcəyi hələ də sual altındadır. Həqiqətən də bu, heç də asan məsələ deyil və bunun qarşısının alınacağı da çətin olacaq, hansıki bunu ekspertlər açıq şəkildə etiraf edirlər. Avropanın enerji siyasətində onilliklər boyu davam edən uyğunsuz qərarlardan, hərəkətlərdən və bununla bağlı uğursuzluqlardan sonra vəziyyəti dəyişmək üçün əlbəttə ki, vaxt tələb olunur. Avropa İttifaqı həqiqətən də çətin seçim qarşısındadır və bunu avropalılar hamıdan yaxşı bilirlər.**




Elektrik enerjisinin idxalına Avropada böyük ehtiac duyulduğu üçün müxtəlif variantlara əl atıldı, amma bunlar arzuolunmaz nəticələrə gətirib çıxardı. Məsələn, elektrik enerjisinin idxalı zərurəti Almaniya və Böyük Britaniyada qazın daha çox yandırılmasına, sərfiyyatına səbəb oldu və qaz böhranını daha da kəskinləşdirdi. Təkcə elektrik enerjisi deyil, həm də qaz idxalı zərurəti yaratdı. Beləliklə, qayğılar, problemlər daha da artdı. Məsələ burasındadır ki, bu fonda heç də qısa müddətdə problemlərin heç birini effektiv şəkildə həll etmək üçün bircə dənə yol belə ortada yoxdur.

Enerji böhranından çıxmaq üçün müxtəlif variantlar axtarılır, amma bu istiqamətdə hələ də uyğun nəticə hasil olunmur. Ola bilsin ki, hansısa variantlar tapıldığı zənn edilir, lakin bunun da mənasız olduğu, eləcə də acı nəticələri özünü tez zamanda göstərir. Məsələn, Almaniya firmaları qazla işləyən qazanları və generatorları neftlə işləyə bilənləri ilə dəyişməyə, onlara çevirməyə çalışsalar da, ancaq bu, bir problemi digəri ilə əvəz etmiş oldu. Bir qədər əvvəl dünyanın qarşılaşdığı pandemiya səbəbindən qapanmalarla əlaqədar olaraq məhdud neft emalı bunun öhdəsindən gələ bilmədi və enerji məsələləri ilə bağlı vəziyyəti bir az da qabarlq şəkildə gərginləşdirməyə başladı.

Alimlər, eləcə də ekspertlər belə etiraf edirlər ki, hətta uzunmüddətli perspektivdə də, enerji böhranının həllini gözləmək olmaz. Vəziyyət olduqca mürəkkəb, həlli isə ondan da çətindir. Məsələnin həlli yollarını görünmür. Görünən odur ki, Avropanın hələ də qısamüddətli perspektivdə qaza, qaz idxalına böyük ehtiyacı var və hələ bundan sonra da olacaq. Qoca qitə üçün enerji məsələləri risklidir, çünki hansısa dəyişiklik bir günün içərisində, yaxud enerji böhranından çıxmaq yolları bir gecədə irəli sürülə bilməz. Problemlərin, enerji ilə bağlı həlli vacib məsələlərin öhdəsindən gəlmək üçün kifayət qədər zamana ehtiyac duyulur. Bu zaman isə ümumilikdə Avropanın əleyhinə işləyir.

İqlim məsələlərinə xələl gətirmədən enerji təhlükəsizliyini təmin etmək üçün yeni düşüncə, yeni baxış tələb olunur. Hətta yeni tədbirlər planına böyük ehtiyacın olduğu da təkzib edilə bilməz, çünki vəziyyətin kritik olduğu artıq etiraf olunmaqdadır. Avropanın və ilk növbədə, Almaniyanın iqtisadi modelinə yenidən baxmadan isə bunu etmək xüsusilə çətindir. Əgər sənaye üçün kifayət qədər ucuz enerji daşıyıcıları və xammal yoxdursa, deməli, dəyişikliklər lazımdır. Bu da ilk növbədə geosiyasi həssaslığın artması deməkdir.

Hələ də enerji böhranı içərisində olan, bu böhrandan bircə dənə də olsa çıxış yolu tapmayan Avropa bu boyda problemin fonunda sanki öz maraqlarını deyil, kimlərinsə maraqlarını güdür və geosiasi müstəvidə hansısa oyunçuların hegemonluq uğrunda mübarizəsində alətə çevrilib. Heç bir dövlətin suverenliyinə qarşı təcavüz müzakirə mövzusu belə ola bilməz, suverenlik müdafiə edilməlidir, amma reallıq ondan ibarətdir ki, indi Rusiya-Ukrayna müharibəsi mövzusunda Avropa sadəcə olaraq, Amerikanın özünə rəqib bildiyi ölkəyə qarşı çıxır, sanksiyalara dəstək verir, bununla da məsələni qəlizləşdirir. Nəticədə də Rusiya qazından məhrum olan Avropa özü elan olunmamış sanksiyalarla üz-üzə qalır. Öz hayında olan Rusiya üçün hansısa ölkələrə qaz ixrac etmək indi sonuncu planda ola bilər və belə də. Belə olan halda da Avropa enerji təchizatı ilə bağlı problemlə üzləşməli idi, hansı ki, bunun acı nəticələri ortadadır.

Bir çox Avropa ölkələri qaz təchizatı məsələlərində ölkəmizə güvənir və indi Azərbaycan etibarlı tərəfdaş hesab olunur. Azərbacan qazı artıq Avropanın bir sıra ölkələrinə çatdırılır, nəql edilir. Artıq Azərbaycan Avropanın qaz təchizatı məsələlərinə öz töhvəsini verməkdədir. Bu, bir reallıq, bir həqiqətdir. Nədənsə, Fransa kimi bir Avropa ölkəsinin prezidenti bu həqiqəti, bu reallığı dərk etmək fikrində deyil və hələ də öz ölkəsinin vətəndaşlarının təbii qaza olan ehtiyacını deyil, ermənipərəstliyi, ermənilələri haqsız olsalar belə müdafiə etməyi üstün hesab edir. Həqiqətən də, vətəndaşlarının qarşılaşdıqları problemləri deyil, başqa bir ölkənin vətəndaşlarının qondarma, yalan iddialarını, hətta bunun yalan olduğunu bilər-bilə müdafiə etmək heç bir siyasətçiyə yaraşmaz, nəinki bir Avropa ölkəsinin prezidentinə. Amma sözügedən ölkənin prezidenti Emmanuel Makron bunu özünə yaraşdırır. Dərk etmək istəmir ki, qış qapının ağzını kəsdirib və iqlim dəyişkənliyinin olduğu, bununla əlaqədar gözlənilməz kəskin hava şəraitinin ola biləcəyi bir dövrdə enerji böhranını nəzərə almadan erməni dəyirmanına su tökmək ilk növbədə öz ölkəsinə, öz ölkəsinin vətəndaşlarına xəyanətdir. Belə xəyanətin fonunda enerji böhranından çıxış yolu nəinki çətin olacaq, bu yol heç olmayacaq da, çünki Makron enerji böhranı, qaz təvhizatı barədə nəinki düşünmür, deyəsən, onun bu problemdən xəbəri də yoxdur.

Ən gülünc məqam isə Makronun Azərbacan qazını öz ölkəsinin almaması barədə dedikləridir. ”Fransa Azərbaycandan qaz almır və bu məsələdə heç bir razılaşma yoxdur”, deyən Fransa prezidentinin bu fikirləri kimə, yaxud kimlərə xoş gəlmək üçün dediyi hamıya bəllidir. Praqa görüşündə səsini çıxarmağa cəsarəti çatmayan Makron, indi Parisdə cəsarətlənəsi olubsa və yenə də erməni dəyirmanına su tökmək qərarına gəlibsə, deməli qətiyyən erməni təəssübkeşliyindən əl çəkməyib. Onun özünün də, özündən əvvəlki Fransa prezidentlərinin də hər zaman ermənipərəst mövqedə olması sirr və eyni zamanda, təəccüblü deyil. Təəccüblü və gülünc olan məqam əvvəla odur ki, öz ölkəsi enerji böhranı ilə əlaqədar çətin vəziyyətə düşdüyü halda, öz vətəndaşlarının və ölkəsinin problemini düşünməli olduğu halda, hansısa bir qondarma erməni dövlətini, onun vətəndaşlarını guya düşünür. Bu, artıq riyakarlıq, ikiüzlülük və xəyanət olmaqla bərabər, istehzalı gülüş doğurur. Digər tərəfdən də, qaza ehtiacı olan bir ölkənin prezidentinin beləcə, ”Fransa Azərbaycandan qaz almır”, deməsi paradoksdur, hansıki acı gülüş doğurur. Əvvəla ona görə ki, qaz Fransanın özünə lazımdır, özü də ötən ilkindən də çox. Digər tərəfdən də, Fransa öz ölkəsinin qaz, enerji təminatında maraqlı olmalı halda, Azərbaycandan qaz almamasında, yaxud almaq istəməməsində nə kimi yaxşı iş var ki, Makron bunu dilə gətirməyi məqbul hesab edir?

Azərbaycan qazı Fransaya lazım olduğu halda, Makron ölkəmizə guya bununla nə çatdırmış olduğunu zənn edir? Təbii ki, burada məntiqi fikir olmadığı nəzərə alınaraq, onun dedikləri yalnız gülünc sayıla bilər. Məntiqi olan Fransanın, ümumilikdə isə, Avropanın enerjiyə olan tələbatı, ehtiyacıdır. Bu məsələnin də öz həllini tapmaması problem olaraq qəbul olunur. Problemin, yəni mövcud vəziyyətin də enerji böhranı olduğu göz önündədir. Əgər bu problemin həlli istiqamətində addım gözə dəymirsə, yaxud da hərhansı tədbirlər nəticə vermirsə, ya da əks nəticə verirsə, eləcə də Makronun timsalında bir dövlət başçısı məsələyə məntiqi yanaşmırsa, deməli, hələ də Avropa çıxış yolu heç də asan olmayan enerji böhrani ilə üz-üzə çox qalacaq.





***İnam Hacıyev***

# Füzuliyə

## Füzulidən danışdım

**Ey böyük Məhəmməd Füzuli, iki il öncə, 17 oktyabrda Azərbaycanın gözü, döyünən ürəyi Füzuli rayonunun bir sıra kəndlərinin və Füzuli şəhərinin işğaldan azad olunması xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdən alanda ilk xəyalıma gələn Sən oldun. Milli Ordumuzun qanı, canı bahasına düşməndən qopardığı əzəli və əbədi yurd yerlərimiz Səni xatırlatdı mənə. Ey torpaq sevgisinin aşiqinə çevrilən, ey Vətən sevgisinin Məcnunu olan, ədalətə, haqqa canını qurban verən, damarlarından axan azərbaycanlı qanının coşğusu ilə döyüş meydanı söz olan şairim... Dünyanın neçə-neçə hökmdarlarını yola salan, əsrlərin müharibələrinə, qələbələrinə şahid, sözü ilə daimyaşar Füzuli... Yadıma sən düşdün. Çünki Sən Füzuli rayonundan da, füzulilərdən də qocamansan... Bu müjdəni ilk olaraq səninlə bölüşmək istədim. Dedim ki:**




### Gözün aydın, Məhəmməd Füzuli

Gözün aydın! Əsası 1827-ci ildə qoyulmuş, Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılan rayonun 1959-cu ildə Sənin-böyük şairimizin 400 illik yubileyi münasibətilə adı dəyişdirilərək Füzuli qoyulan yurd yerimiz düşməndən azad olundu. Qəbrində rahat yat. Su çilənsin məzarına. Qılıncdan iti qələmini süngərə çevirən Azərbaycan əsgəri bir dastan yazdı. Bu dastan "Qarabağ" dastanıdır. Sən də bu dastanın bir boyuna çevrildin. Füzulililər bu gün sevinc içərisindədirlər.1993-cü ildə doğma ev-eşiklərindən erməni köksüzlərinin zoru ilə didərgin düşmüşdülər. Füzulidə doğulan Füzuliyə həsrət qalmışdı. Füzulidə ev-eşik salan, torpağını canından artıq sevən azərbaycanlılar illərdir ki, bu torpağın ətrini burunlarında hiss edirdilər. Gülündən, çiçəyindən, dərəsindən-düzündən ayrı düşmüşdülər. Sənin qəzəllərinin torpaq sevdalılarına, Vətən aşiqlərinə, həsrətlilərinə çevrilmişdilər. 30 il idi ki, dünyanın "ədalətə cavabdehləri" danışır, danışır, danışdıqca da söz həqiqət məhvərindən çıxıb başqa məcralara yönəlirdi.

Gər çox istərsən, Füzuli, izzətin az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

"Əgər sözün hörmətli, dəyərli olmasını istəyirsənsə, miqdarini az et, çünki çox danışmaq çox insanı hörmətdən salıb",- nəsihətini dinləmədi bu "ədalət cavabdehləri". Söz sözlükdən çıxdı, yalanlara qurban getdi, Füzuli. Hansı ki, sən sözü dünyanın tacı, insanlığın açarı, mənəviyyatın varlığı hesab edirdin:

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

"Sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca dirilmiş olasan",-deyirdin. Sözü yalan olanlar ölümlərindən sonra da xatırlanacaq, şair. Lakin tamamilə başqa cür xatırlanacaqlar: bir xalqın əzəli torpaqlarının işğalına göz yumanlar kimi, minlərlə şəhidin qanında boğulanlar kimi, yüzlərlə dinc sakinin, xüsusilə də uşaqların qanlarına əlləri batmış və sözünü tutmayan, sözünün ağası olmayanlar kimi.



### "Qarabağ" dastanının "Füzuli" boyu

Gözün aydın, Füzuli! Xalqın dastan yazdı, tarixi "Qarabağ" dastanını yazdı. Bu ali bir dastandır, çünki şəhid qanı ilə, bir də dövlətimizin rəhbərinin kəsərli sözü ilə yazıldı. Qarabağın əsrlərlə yaşı fonunda 30 illik nisgilin qələbəsi yazıldı. Ali Baş Komandanın böyük Milli Ordumuza əmri, xalqına verdiyi inamla yazıldı bu dastan. Sənin adını daşıyan Füzuli də bu dastanın bir boyuna çevrildi. Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik boyu uzanan, mənbəyini Araz hövzəsindən alaraq köksündən axıtdığı Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları ilə gözəlliklər məkanı olan, uğrunda hələ əvvəllər, işğalı zamanı 1000-dən artıq eloğlumuzun şəhid olduğu, 1500-dək sağlamlığını itirmiş insanlar olan Füzuli növrağına qovuşdu. 27 sentyabr 2020-ci il tarixdə şanlı Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, 9 oktyabrda Yuxarı Güzlək, Gorazıllı, 14 oktyabrda Qaradağlı, Xatunbulaq, Qarakollu, 15 oktyabrda Arış kəndi işğaldan azad edildi. 17 oktyabrda isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olundu.

### Biz Füzuliyə qayıdırıq

Həyatını Azərbaycan xalqının müstəqilliyinə həsr edən ümummilli liderimizin ardıcılı, qürur mənbəyimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: "Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir".

Bəli, böyük Füzuli, biz Füzuliyə qayıdırıq. Tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin, rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsinə, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsinə, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində səndüqə formalı qəbirdaşının üzərindəki türbəyə, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsinə, Qarğabazar kəndində, Şah Abbas karvansarayından yuxarı, qayanın üstündə füzulilərin Şah Abbas adlandırdığı məscidə qayıdırıq. Biz tariximizi qorumağa, gələcək nəsillərə ərmağan etməyə qayıdırıq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri





və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

## Azadlığı ilə abadlığına qovuşan Füzuli

30 ilə yaxın dövrdə daşı daş üstündə qalmayan yurd yerlərimizdəndir Füzuli. İşğaldan azad olunan bu ata-baba ocağını da digər rayonlarımız kimi abadlıq işləri qoynuna alıb. Qoynuna alıb ki, abadlaşsın, hərtərəfli şərait yaradılsın, soydaşlarımız öz doğma evlərinə tezliklə qayıda bilsinlər.

Şuşanın işğaldan azad olunmasında böyük strateji əhəmiyyətə malik olan Füzuli rayonunda dövlətimizin başçısı ötən il yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, Füzuli rayonunda hava limanının, oktyabrın 17-də-Füzulinin azad olunduğu gün isə Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, həmçinin Azərişıq ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməllərini qoyub.

Ölkə rəhbərinin həmin gün hava limanında görülən işlərlə maraqlanması, Füzuli Mərkəzi Şəhər parkında yaradılacaq şəraitlə tanış olması, ilk yaşayış binalarının və Füzuli Memorial Kompleksinin təməlinin və Füzuli şəhərinin təməl daşının qoyulması yaxın gələcəkdə Füzulinin sürətli inkişafını, sakinlərinin yurd yerlərinə tezliklə qayıdacaqlarını şərtləndirən amillərdir.

Füzulidə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı ölkəmizin başçısı demişdir: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir".

Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in yaradılması nəzərdə tutulub. Prezident İlham Əliyev 2022-ci ilin birinci yarısının yekunları ilə bağlı müşavirədə bu layihə barədə demişdir: "Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq... Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik".

## Vay ol hakimə kim, eyləyə hökmündə xəta

Böyük Məhəmməd Füzuli, Sən dövründə Məhəmməd adlı paşaya yazdığın qəsidədə hökmdarın ölkəni ədalətlə bəzəməyə borclu olduğundan, ədalətsizlik nəticəsində ölkədə nə kimi fitnə-fəsad törənəcəyindən danışırdın. İki il öncə Sənin bu günlə səsləşən həmin qəsidəsindən bir parçanı Paşinyan nəsihət şəklində qəbul etsəydi, Ermənistanda yaşayan insanları ölümə sürükləməzdi, öz üzərinə qaldırmazdı. Bu nəsihəti dinləsəydi, başqasının torpağından çıxmaq istəməyən, bunun üçün də xalqının qocasını, qadınını müharibəyə cəlb edən, döyüşmək istəməyən əsgərləri zəncirləyən, ölkədən qaçıb canını qurtarmaq istəyən insanları güllələtdirən bu ədalətsiz "rəhbər" ölkəsində hansı vəziyyətin yaranacağını təxmin etmiş olardı. Təxmin edə bilərdi ki, az sonra ağ bayraq qaldırıb təslim olduqlarını bəyan edəcəklər. Təxmin edə bilərdi ki, başqasının olan torpaq müvəqqətidir. Onun sahibi nə vaxtsa geri dönəcək.

Vay ol hakimə kim, eyləyə hökmündə xəta,

Qıla məzlumləri mərhəmətindən məhrum...

Artıq adaşın Füzuli iki ildir ki, 30 ilin nisgilini arxada qoyub, azadlığına qovuşub, Füzuli. Bütün olanları sənə - böyük şairimizə danışmaqda məqsədim isə şad olan ruhunu bir qədər də şad etməkdir. Rahat uyu, böyük şair. Nəinki Füzuli, bütün Qarabağ artıq anası Azərbaycana qovuşub. Sənin kimi minlərlə ruhlar indi şaddır. Çünki biz namus, şərəf məsələmizi həll etmişik, torpaqlarımızı düşməndən geri almışıq. Çox şükürlər olsun!

***Mətanət Məmmədova***

# Erməni politoloqu: "Yaxınlarda Rusiyanın sərt bəyanatları olacaq"

Ermənistanın Rusiyadan uzaqlaşma və Qərbə doğru meyllənmə siyasəti günü-gündən artır və biz belə bir situasiyada Moskvanın hələ ki, müttəfiqlik çərçivəsi daxilində və sərt görünməyən bəyanatlarını müşahidə edirik. Ancaq həmin münasibətin bu cür davam edəcəyini də düşünmək olmaz. Belə ki, Rusiyanın uzun illər qoynunda bəslədiyi Ermənistan faktorundan elə-belə əl çəkəcəyi inandırıcı görünmür.



Həmçinin, Ermənistanda mövcud siyasi cameələrin rusiyapərəst və qərbpərəst cinahlara ayrılması da diqqətçəkən amillərdəndir. Hətta bu gün Paşinyan iqtidarına qarşı elə müxalif qüvvələr var ki, onlar Qərb dəstəkçiləridirlər, amma buna baxmayaraq hakimiyyətə qarşı kütləvi aksiyalar keçirir, iqtidara gələcəklərini iddia edirlər. Təbii ki, Rusiya tərəfdarları olanlar da onlara qarşı ziddiyyətli mövqedə dayanırlar. Ermənistandakı siyasi üçbucaq mənzərəsi isə bu cürdür - rusiyapərəst müxalifətçilər, qərbyönümlü müxalifət və Qərbə tərəf meyllənən, ancaq Rusiya ilə müttəfiq olan iqtidar.

### Vigen Hakopyan: "Biz Paşinyanın öz manipulyasiyalarından maksimum istifadə edərək hərdən şantaja da əl atdığını müşahidə edirik"

SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, politoloq Vigen Hakopyan "Erməni gündəmi: Rusiyanın Qərblə toqquşması episentrində" adlı panel müzakirələri zamanı sözügedən fikirlərlə çıxış edib. Onun iddiasına görə, erməni ictimai-siyasi rəyi çox maraqlı situasiyanı müşahidə edir: "9 (10-R.R.) noyabr sənədinin imzalanmasından sonra gözlənilirdi ki, Ermənistan girova çevriləcək, Rusiya isə fövqəldövlət olaraq Ermənistanın baş nazirini maksimum şəkildə istifadə edəcək, hansı ki, mövcud vəziyyətdə biz Paşinyanın öz manipulyasiyalarından maksimum istifadə edərək hərdən şantaja əl atdığını müşahidə edirik".

### Politoloq: "Ruslar çalışırlar ki, Ermənistan hökumətinin oyunlarına yumşaq reaksiyalar göstərsinlər, amma bu o demək deyil ki, əldə olan alətlərdən istifadə olunmayacaq"

Hakopyana görə, ruslar erməni hökumətinin hərdən qeyri-müəyyənliyinə, hərdən isə açıq qərbpərəstliyinə dözümlülük sərgiləyir, amma belə yanaşma davamlı xarakter almayacaq və qarşıda Ermənistanı ciddi təhlükələr əhatə edə bilər. "Ruslar çalışırlar ki, Ermənistan hökumətinin oyunlarına yumşaq reaksiyalar göstərsinlər, amma bu o demək deyil ki, əldə olan alətlərdən istifadə olunmayacaq", qeyd edən erməni politoloquna görə, Moskva İrəvana qısa müddətli vaxt verib. Vaxt başa çatdıqdan sonra isə olmalı olanlar olacaq: "Tezliklə sərt bəyanatlar səsləndiriləcək ki, bu da Ermənistanın xarici siyasi sektorlarını balaslandıracaq", politoloq Vigen Hakpoyan bildirib.

***Rövşən RƏSULOV***

# "Ermənistanda əhalini sülhə hazırlamaq istiqamətində müsbət işartılar var"

"Ermənistan tərəfi ilin sonunadək Azərbaycanla sülh müqaviləsinin bağlanacağını açıqlayıb. Sülh müqaviləsinin imzalanması regional təhlükəsizliyin gücləndirilməsinə xidmət edəcək eyni zamanda, bir sıra fikir ayrı-seçkiliklərini də kənara qoyacaq". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, Avropa İttifaqının moderatorluğu ilə Praqada keçirilmiş görüşdə artıq Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıdığını təsdiqlədi: "Bu sülh müqaviləsi istiqamətində mühüm bir addımdır. Digər tərəfdən Ermənistanda əhalini sülhə hazırlamaq istiqamətində bir sıra müsbət işartılar var. Belə ki, Ermənistan prezidenti Vaaqn Xaçaturyan və Ermənistan parlamentinin spikeri Alen Simonyan həm geosiyasi vəziyyətin dəyişməsi, həm də Qarabağla bağlı bir sıra fikirlərə yol veriblər. Əsas məsələ bundan ibarətdir ki, sülh istiqamətində Ermənistan şəffaf və səmimi olsun. Çünki biz dəfələrlə ikiüzlü yanaşmaların şahidi olmuşuq. Eyni zamanda, Ermənistan üzərinə götürdüyü bütün öhdəliklərdən də boyun qaçırdır, məsuliyyəti dərk etmir və bu da sonra gərginliyə səbəb olur. Ona görə də, düşünürəm ki, Ermənistan verilmiş vaxt kəsiyində sülh müqaviləsinin imzalanmasına özü tərəfdar olmalıdır, Zəngəzur dəhlizi açılması ilə bağlıda prosesləri yubatmamalıdır. Çünki vaxt keçdikcə, limitlər dolduqca daha sonra cavab vermək lazım olur. Bunu Ermənistan tərəfi dərk etməlidir və buna uyğunda addımlar atmalıdır. Təbii ki, noyabr ayı çox mühüm görüşlə yadda qalacaq. Azərbaycan və Ermənistan liderlərinin növbəti təması nəzərdə tutulub. Eyni zamanda, ilin sonuna qədər sülh müqaviləsinin imzalanması da əsas prioritetdir. Düşünürəm ki, məhz sülh müqaviləsinin imzalanması Müzəffər Ali Baş Komadan İlham Əliyevin diplomatik sahədə qələbəsi və tarixi zəfərimizin hüquqi zəmində təsbitinin bir nəticəsi olacaqdır. Bu istiqamətdə də bütün işlər Azərbaycanın milli maraqları kontekstində növbəti uğurumuzla nəticələnəcək".



***Gülyanə***

# Dollar əvəzinə yuan?

***Dolların dünyanın ehtiyat valyutası olmaq vaxtı çoxdan bitib. ABŞ-ın dövlət borcunun (33 trilyon dollar) böyüklüyünü nəzərə alsaq, dollar artıq bu yükə dözə bilmir. ABŞ valyutası üçün əsas təhlükə Asiyadan gəlir.***

ABŞ-ın son dörd prezidenti - kiçik Buş, Obama, Tramp və Baydenin ortaq cəhətləri az idi. Bununla belə, onlar Rusiya qazını Almaniyaya nəql etmək üçün Baltik dənizinin dibi ilə çəkilmiş "Şimal axını 2" qaz kəmərini bloklamaq cəhdlərində yekdil idilər.

Ötən ay baş verən partlayışlar qaz kəmərini sıradan çıxarıb. Bu, dövlət səviyyəsində terror hücumu idi. Onu da qeyd edək ki, Avropa İttifaqının siyasi liderlərinin hadisəyə susqun reaksiyası çox maraqlı idi. Şübhəsiz ki, onlar dünyanın yeni dövrə qədəm qoyduğunu anladılar.



## Qara qızıl

Fosil yanacaq dünyanın əsas əmtəəsidir. Enerji məhsulları dünya ticarətinin təxminən 8% -ni təşkil edir, lakin istehsalın 90% -i üçün lazımdır. Bu ticarət olmadan hətta yaranmaqda olan "yaşıl" texnoloji inqilab da mümkün deyil. Neft ABŞ dolları ilə qiymətləndirilir və satılır. İspan şirkəti Səudiyyə Ərəbistanında qara qızıl alarsa, dollar ödənişi Nyu Yorkdakı bankdan keçir. Eyni şey əksər digər məhsullara da aiddir. Yaponiya Avstraliya buğdasını alarsa, Nyu-York bankları ödənişi ABŞ valyutası ilə həyata keçirir.

Dollar 1944-cü ildə faktiki olaraq dünya ehtiyat valyutasına çevrilib. Bretton Woods müqaviləsi qızılla dəstəklənən dolları qlobal pul sisteminin "lövbəri" etdi. Bir unsiya üçün sabit qiymət 35 dollar olan ABŞ valyutası tələb olunduqda qızıla dəyişdirilə bilərdi.

Bretton Woods sistemi ABŞ-a qlobal maliyyə sisteminin "boru kəmərləri" üzərində virtual nəzarətini həyata keçirmək imkanı verdi. Dollar sərhədlər boyu ticarət edilən bütün mal və xidmətlər üçün meyar oldu və dünya iqtisadiyyatının müharibədən sonrakı bərpasına töhfə verdi.

1960-cı illərin sonlarında isə Bretton Vuds təzyiqə məruz qaldı. ABŞ qazandığından daha çox xərcləməyə başladı. Prezident Lyndon Consonun "Böyük Cəmiyyət" və Vyetnam müharibəsi ("yağ əvəzinə silah") artan mal və xidmətlərin çatışmazlığına səbəb oldu və ABŞ-ın qızıl ehtiyatları ilə bağlı suallar doğurdu.

Fransa hökuməti ilk olaraq narahat oldu. "Soyuq Müharibə" illərində Fransa digər Avropa ölkələri ilə birlikdə qızıl ehtiyatlarını ABŞ-a köçürüb. Onlar qorxurdular ki, Sovet İttifaqı Parisə və Londona doğru hərəkət edib qızıllarını alacaq.

1971-ci il avqustun əvvəlində Fransa öz külçələrini geri qaytarmaq üçün Nyu Yorka hərbi gəmi göndərdi. Bir neçə gün sonra, avqustun 15-də prezident Riçard Nikson ABŞ milli televiziyasında çıxış edərək ABŞ-ın bundan sonra dolları qızıla dəyişdirməyəcəyini açıqladı. "Qızıl pəncərə" adlanan pəncərə möhkəm bağlandı.

Nikson tədbirin müvəqqəti olacağını, lakin "qızıl pəncərə"nin heç vaxt açılmadığını söylədi. Dolları qızıldan ayıran və Bretton Woods müqaviləsini ləğv edən ABŞ öz mülahizəsinə uyğun olaraq pul çap etməyə başladı. Və dünya ABŞ-a dünyanın ehtiyat valyutasının yaxşı idarəçisi kimi etibar etməli olacaqdı. Bu, belə də oldu...

Dolların dünyada öz rolunu saxlamasına əmin olmaq üçün Nikson dövlət katibi Henri Kissinceri Səudiyyə Ərəbistanına göndərdi. O, krallığı nefti yalnız dollarla satmağa inandırmalı idi. Bunun müqabilində ABŞ Səudiyyə krallığını qoruyacaq. Bu müqavilə Amerika pul vahidinə "petrodollar" ləqəbi verdi.

## Qızıl üçün döyüş

Nikson dolları qızıldan ayırdıqdan sonra ABŞ siyasi sistemi maliyyə intizamını itirdi. "Qızıl pəncərə" bağlandıqdan sonra Birləşmiş Ştatlar heç vaxt balanslaşdırılmış büdcəyə malik olmadı. Ticarət kəsiri kimi dövlət borcu da durmadan artdı.

Amerikada böyük seçkili vəzifəyə namizəd olan siyasətçilər büdcə məhdudiyyətləri olmadan mənzil və ya müdafiəyə daha çox pul xərcləyəcəklərini vəd etməyə başlayıblar. Müasir Pul Nəzəriyyəsi (MMT) bu siyasət üçün faydalı dəstək təklif etmişdir. Axı öz valyutasını buraxan ölkələr müflis ola bilməz.

Nəticədə ABŞ-ın büdcə kəsiri xroniki xarakter alıb və dövlət borcu durmadan artıb. Birləşmiş Ştatlar heç kimin onun qızıl ekvivalentini tələb etməsindən narahat olmadan sadəcə olaraq milli borcunu artıra bilərdi. 2008-ci ilin maliyyə böhranından bəri ABŞ səlahiyyətliləri Amerikanın milli borcunu yaratmaq sənətini yeni səviyyəyə qaldırdılar. Bir neçə "müvəffəq olmaq üçün çox böyük" banklar iflas ərəfəsində oldu. ABŞ hökuməti maliyyə fəlakətinin qarşısını almaq üçün milyardlarla dollar xərcləyib. "Uoll Strit fidyəsinin" əsl ölçüsü "hiylə dumanı" arxasında gizlənmişdi.

On il sonra ABŞ hökuməti COVID-19 pandemiyasının nəticələrinin aradan qaldırılması üçün milli borclara trilyonlarla vəsait əlavə etdi. 2008-2020-ci illər arasında ABŞ-ın dövlət borcu 9 trilyon dollardan 30 trilyon dollara yüksəlib. Bu gün isə bu rəqəm 33 trilyon dollardır. Dollar qızıldan ayrıldıqda, bu valyutada ifadə olunan ABŞ borcu Ponzi sxeminə bənzəməyə başladı.

ABŞ-ın dövlət borcu artdıqca ona faizlərin ödənilməsinə ayrılan büdcə maddəsi durmadan artdı və müdafiə xərclərindən sonra ikinci yeri tutmağa başladı. Xroniki büdcə kəsiri ilə hökumət öz borcunu ancaq bilərəkdən daha da artırmaqla ödəyə bilərdi.



## Öldürücü inflyasiya

İndi narahat olmaq növbəsi Çindədir. Pekin Vaşinqtonun təşviq etdiyi qlobalizmdən əsas faydalananlardan biri olub. 1970-ci illərin sonundan başlayaraq və dolların zirvəsinə qalxan Çin bir neçə onillikdə əhalisinin əksəriyyətini yoxsulluqdan çıxartdı.

Çinin ABŞ-a ucuz mal ixracı Amerika əhalisi üzərində inflyasiya təzyiqlərini azaldıb. Lakin bu, iqtisadiyyatı genişləndirməkdən daha çox pul çap etməyin tipik nəticəsidir. 2020-ci ilə qədər ABŞ ticarət kəsirini ödəmək üçün Çinə gündə təxminən bir milyard dollar göndərirdi.

Pekin həmin dolları "doldurmaq" üçün onlardan bir trilyondan çoxunu uzun müddət təhlükəsiz investisiyalar hesab edilən və təhlükəsiz girov kimi qiymətləndirilən ABŞ Xəzinədarlıq istiqrazlarına yatırıb. 2008-ci ildə ABŞ administrasiyasının Uoll Stritə verdiyi yardımın həcmi, eləcə də artan kreditin qaytarılması Çində narahatlıq yaradıb. Hedcinq etmək üçün Pekin qızıl, ərzaq və digər malları maddi və proqnozlaşdırıla bilən qiymətlərlə almağa başlayıb.

Bu gün Çin öz qızıl ehtiyatları barədə susur, lakin qlobal qızıl ticarəti icmasındakı müşahidəçilər onun indi ABŞ-dan daha çox qiymətli metala sahib olduğuna inanırlar. Bu məlumat təsdiqlənərsə, Çinin qızıl ehtiyatları dünyada ən böyük qızıl ehtiyatına çevriləcək.

Digər ölkələr də dollardan və daha geniş mənada ABŞ valyutasına əsaslanan qlobal maliyyə sistemindən narahat olublar. Onlar da aktiv şəkildə qızıl almağa başlayıblar. Bütün dünya üzrə mərkəzi banklar köhnə "qızılın sahibi deyilsənsə, o sənin deyil" məsələsinə əməl edərək külçələrini öz ölkələrinə qaytarıblar.

## Dollar sistemindən çıxın

Son 500 il ərzində Qərbdə altı ehtiyat valyuta mövcud olmuşdur: Portuqaliya (1450-1530), İspan (1530-1640), Hollandiya (1640-1720), Fransız (1720-1815), İngilis (1815-1920) və Amerika (1944-cü ildən bu günə qədər). Hazırda dünyada baş verən hadisələr göstərir ki, dolların qüdrət dövrü sürətlə başa çatır.

Çin, Tailand və bir sıra digər ölkələr rəqəmsal yuan üçün hazırlanmış texnologiyaya əsaslanan yeni transsərhəd ödəniş sistemini sınaqdan keçirir. Moskva və Pekin Rusiyanın enerji və Çin texnologiyası ticarətində yuan və rubldan istifadə etmək barədə razılığa gəliblər.

ABŞ ən çox Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) ən güclü üzvü olan Səudiyyə Ərəbistanından narahatdır. Səudiyyəlilər nefti yuana satmaq üçün Çinlə danışıqlar aparır. Çin isə Səudiyyə Ərəbistanının əsas ticarət tərəfdaşıdır.

Asiyada artan "de-dollarizasiya" ABŞ-ın Avropanı dolların "düşərgəsində" saxlamasının nə üçün vacib olduğunu izah edir. Amerika Avropa və Asiya arasında iqtisadi əlaqələrin böyüməsinə son qoymalıdır. Bu, ABŞ-ın son dörd prezidentinin "Şimal axını 2"ni sarsıtmaq cəhdlərini izah edir.

Rusiya nəinki böyük enerji ehtiyatlarına malikdir. Coğrafi mövqeyi və nəhəng ölçüsü ona Çin, Hindistan və Avropa arasında əsas əlaqə rolunu oynamağa imkan verir. Avrasiya iqtisadi regionu - 93 ölkə və öz aralarında ticarət edən 5,3 milyard insan dollara arxalanmamalıdır.

Ukraynada münaqişə nəhayət bitəcək. Amma indiyədək ABŞ öz məqsədinə nail olub. Avropa bu gün Rusiyanın enerji mənbələrindən böyük ölçüdə kəsilib. "Şimal axını 2"nin məhv edilməsi münaqişənin kompromis həlli üçün mühüm kozırı aradan qaldırdı.

**V.VƏLİYEV**






# Heydər Əliyev ideyaları əbədiyaşardır!

## YAP-ın 30 illik yubileyi münasibətilə Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub

**Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatının təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlər keçirilir.**

Tədbirlər Planı çərçivəsində YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının fəal gənclərinin 18 oktyabr - 4 noyabr tarixlərində Heydər Əliyev Mərkəzinə ekskursiyası nəzərdə tutulur. İlk olaraq oktyabrın 18-də YAP Xətai rayon təşkilatının nümayəndələri Heydər Əliyev Mərkəzini ziyarət ediblər.





Ziyarətçilərə dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib. Bildirilib ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin, Ulu Öndərin irsinin dərindən öyrənilməsi və tədqiqi istiqamətində fəaliyyət göstərir. Heydər Əliyev Mərkəzi Azərbaycanın tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına xidmət edən layihələr həyata keçirir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, Muzey Ümummilli Liderin 90 illik yubileyi ərəfəsində istifadəyə verilib. Ziyarətçilərə ümummilli lider Heydər Əliyevin ömür yolu ilə yanaşı, müxtəlif tarixi dövrlərdə Azərbaycanın ictimai-siyasi həyatında, mədəniyyət, iqtisadiyyat, idman sahələrində baş verən önəmli hadisələr barədə məlumatlar çatdırılır. Qonaqlar Muzeydə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxıblar.

Qeyd edilib ki, muzeyin ən maraqlı bölmələrindən biri də Ulu Öndərin müxtəlif ölkələrin rəhbərləri ilə görüşlərini əks etdirən multimedia zalıdır. Buradakı qlobusda ölkələrin üzərinə toxunmaqla arxa fonda ulu öndər Heydər Əliyevin dövlət başçıları ilə görüşlərinin və Ümummilli Liderə təqdim edilən hədiyyələrin fotoları əks olunur.

Ziyarətçilər Mərkəzdə yerləşən "Azərbaycan inciləri" Muzeyi ilə də tanış olublar.

Partiyanın gənc üzvləri Heydər Əliyev Mərkəzindən zəngin təəssüratlarla ayrılıblar.

# Kürdəmirdə şəhid ailələri və qazilər üçün tibbi aksiya keçirilib

**Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi ilə əlaqədar YAP İdarə Heyətinin üzvü, akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun şöbə müdiri, professor Tofiq Cahangirovun rəhbərliyi ilə oktyabrın 15-16-da Kürdəmir rayonunda şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçirilib.**





"Qarabağ Azərbaycandır! Zəfər Azərbaycanındır" şüarı altında keçirilən aksiya iki gün davam edib.

Aksiya iştirakçıları öncə Kürdəmir rayonunda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar. Sonra rayon mərkəzindəki Şəhidlər xiyabanı ziyarət olunub, Qarabağ müharibəsi şəhidlərinin xatirəsi anılıb, abidələri önünə tər qərənfillər düzülüb.

Daha sonra Kürdəmir Rayon Mərkəzi Xəstəxanasında aksiyaya start verilib. Aksiya çərçivəsində şəhid ailələrinə, qazilərə və onların ailə üzvlərinə professor Tofiq Cahangirov və onun rəhbərliyi altında çalışan həkim heyəti tərəfindən lazımi tibbi xidmətlər göstərilib.



Aksiya barədə məlumat verən YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov bildirib ki, bu "Zəfər Azərbaycanındır" şüarı ilə keçirilən 3-cü aksiya idi: "İlk aksiyamız ötən il qazandığımız Qələbənin ildönümü ərəfəsində - noyabrın 8-9-da Sabirabad rayonunda baş tutmuşdu. Daha sonra 2022-ci ilin 3-4 aprel tarixlərində bu aksiya Saatlı rayonunda keçirildi. İki gün ərzində həkimlərimiz tərəfindən şəhid ailələrinin üzvləri və qazilərimiz üçün müxtəlif müayinələr aparıldı, onlara müalicələr təyin olundu".

T.Cahangirovun sözlərinə görə, 100-ə yaxın şəhid ailəsi üzvləri və qazilər üçün kardioloji, nevroloji və digər müayinələr həyata keçirilib: "Bizim komandamızda nevroloq, endokrinoloq, müasir rəngli Doppler exokardioqrafiya mütəxəssisləri və digər həkimlərimiz də var idi. Həmçinin laborator müayinələr - xəstələrdə şəkər, kreatinin, laxtalanma sistemi və digər analizlər aparıldı, diaqnozlar dəqiqləşdirildi, təyinatlar müəyyən olundu. 2 gün ərzində gərgin əmək sərf edən həkimlərimizə dərin təşəkkürümü bildirirəm. Həmçinin Fransanın "Servier" şirkətinin aksiyaya böyük dəstəyi oldu. Onlar bundan əvvəlki aksiyalarımıza da dəstək vermişdilər. Şirkətin nümayəndələri daha çox ehtiyacı olan xəstələri pulsuz və keyfiyyətli dərmanlarla təmin edirlər".

YAP İdarə Heyətinin üzvü belə aksiyaların davamlı olacağını deyib: "Biz qarşıdakı aylarda növbəti aksiyalarımızı keçirməyi planlaşdırırıq. Ümumiyyətlə, belə aksiyaların respublikanın bütün bölgələrini əhatə etməsini nəzərdə tuturuq".

# YAP-ın formalaşdırılması və güclənməsi beynəlxalq təcrübəyə əsaslanır

Vətən, torpaq uğrunda mübarizə, onu qorumaq, uğrunda qan tökmək, can vermək amalı şərəfli, eyni zamanda müqəddəs missiyadır. Ötən əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində ölkədə cərəyan edən ictimai-siyasi hadisələr, xaos, anarxiya, ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin güclənməsi yenidən Azərbaycanı müstəqilliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qoymuş, xain və məkrli Ermənistanın təcavüzkarlıq siyasətinə münbit zəmin yaratmışdır. Belə bir mürəkkəb və məşəqqətli sınaq dövründə xalqın düşdüyü çətin vəziyyətdən yalnız müdrik siyasətçi, ömrünü xalqına həsr edən dahi lider çıxarmaq iqtidarında idi. Məhz bu baxımdan xalqın talehinə biganə yanaşmayan Azərbaycan ziyalıları ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış edərək böyük strateq Heydər Əliyev şəxsiyyəti ətrafında cəmləşmək qərarına gəldilər. Nəticədə bu gün "91-lər"in müraciəti kimi müasir tariximizə yazılan Azərbaycanın 91 nəfər ziyalısının imzası ilə Nuhun diyarı-Naxçıvana, Dahi Öndər Heydər Əliyevə müraciət göndərilmiş, müdrik siyasətçinin xalqın taleyüklü, çətin məqamında siyasi təşkilata rəhbərlik etməsi xahiş edilmişdi. Xalq həmçinin yaxşı bilirdi ki, Ulu Öndər Heydər Əliyev belə bir mürəkkəb şəraitdə onları talehin naümid hökmünə əsla buraxmaz. Həmin zaman kəsiyində Azərbaycanda mövcud olan ictimai-siyasi şərait və cərəyan edən mürəkkəb hadisələr 1992-ci ilin noyabrın 21- də Yeni Azərbaycan Partiyasının yaradılması ilə nəticələndi. Zamanın ən öncül siyasi qüvvəsi olan bu partiya azadlıq duyğuları közərin xalqın sabaha, perspektivli gələcəyə olan inamını yenidən alovlandırdı.



*Tural Qasımlı*
*YAP Şamaxı rayon təşkilatının sədri*

Nəzərə alsaq ki, ölkəmizdə bütün sahələr üzrə sosial-iqtisadi vəziyyətin gərgin olduğu bir vaxtda yaranan YAP-ın fəaliyyət imkanları da olduqca çətin idi. Müdriklər deyir ki, "dünən atdığın düzgün addım bu gün üçün hədiyyədir" Zaman Yeni Azərbaycan Partiyasının gənc olmasına baxmayaraq, mövcud çətinliklərin aradan qaldırılması yolunda bütün ağırlığı, məsuliyyəti daşımağa qadir olduğunu, həmçinin ölkə vətəndaşlarının partiyaya olan sonsuz inam və etimadında yanılmadığını bir daha sübut etdi. Xalqın yeganə və son ümid yeri olan Ulu Öndər Heydər Əliyevin siyasi meydana qayıdışı ilə Azərbaycan müstəqilliyini yenidən itirmək, ölkə isə vətəndaş müharibəsinə şahid olmaq təhlükəsindən xilas oldu. Xalq-Heydər Əliyev tandemi cəmiyyətdə dövlətimizin yenilməzliyinə böyük inam yaratmaqla bərabər, sülh, sabitlik, dirçəliş və dananıqlı inkişafa etibarlı zəmin formalaşdırdı. Ümumilikdə, 1993-2003-cü illər Azərbaycanda bütün sahələri əhtiva edən yeni inkişaf və intibah erasının başlanğıcı hesab olunur. Dahi şəxsiyyət Heydər Əliyev ölkə həyatında baş verən bütün problemlərə xüsusi diqqət və həssaslıqla yanaşır, onların həllinə maksimum qüvvə və səy göstərirdi. Bu istiqamətdə reallaşdırılan tədbirlərin məntiqi davamı kimi, 1994-cü ildə Azərbaycanın strateji inkişaf konsepsiyasının təməli hesab edilən "Əsrin müqaviləsi" imzalanmış, habelə ulu öndərin siyasi iradəsi və peşəkar diplomatik fəaliyyəti sayəsində Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşıb. Bu dövrdə diqqətdə saxlanılan prioritet sahələrdən biri də hərbi uğursuzluqların aradan qaldırılması, torpaqlarımızı işğal edən düşmənin qarşısının qətiyyətlə alınması, eyni zamanda ordu quruculuğunun möhkəmləndirilməsi və o cümlədən peşəkar kadrların formalaşdırılması idi. Ümummilli liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkə daxilində baş verən çaxnaşmalar aradan götürüldü, təhlükəsizlik təmin olundu, eləcə də bütün iqtisadi güc və potensial işğalçı ölkəyə qarşı müqavimətin təşkilinə yönəldildi. Ard-arda hərbi uğursuzluqlar yaşadığını və daha irəliləyə bilmədiyini görən təcavüzkar Ermənistan tarixi əhəmiyyət kəsb edən 1994-cü ilin may ayında Bişkek protokolunu imzalamağa məcbur oldu. Əminliklə demək olar ki, atəşkəs rejimi ölkəmizdə ilk dəfə qüdrətli ordunun yaradılmasına, bu sahədə ardıcıl və sistemli tədbirlərin görülməsinə rəvac verdi.Beynəlxalq təcrübələrdən də məlum olduğu kimi, demokratik dəyərlərə və prinsiplərə hörmət, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının maksimum səviyyədə təmin edilməsi idarəçilik modelinin təməl prinsiplərindən hesab edilir. Müdrik şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu, birbaşa və ən yüksək hüquqi qüvvə malik normativ aktın-Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması da ölkə inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoyulması baxımından mühüm töhfə oldu. Bununla yanaşı, "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanla ölkəmizdə senzura ləğv edildi, söz və mətbuat azadlığının əsası qoyuldu, mətbuat cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edən qüdrətli vasitəyə çevrildi.

Qürurlu haldır ki, bu gün ümummilli liderin siyasi xəttini bütün parametrlər üzrə uğurla davam etdirən ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı davamlı və dayanıqlı inkişaf yoluna çıxarmış, dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Azərbaycanın regionun ən qüdrətli, böyük nüfuz və söz sahibi dövlətə çevrilməsində, eyni zamanda qazanılan ciddi uğurlarda Yeni Azərbaycan Partiyasının rolu və əhəmiyyəti xüsusi çəkiyə malikdir. Yarandığı ilk gündən etibarən möhkəm əqidə, sağlam ideologiya və azərbaycançılıq məfkurəsi ilə xalqa sədaqətlə xidmət edir, istər ölkə daxilində, istərsə də beynəlxalq arenada partiyanın fəaliyyətinin səmərəliliyin artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirlir. Ötən dövrlər ərzində 6 siyasi partiyanın YAP-a qoşulması isə partiyanın cəmiyyətə milli həmrəylik mesajları verdiyini, qapılarının konstruktiv qüvvələrə açıq olduğunu nümayişi, eyni zamanda ölkəmizin siyasi mühitində siyasi dialoq mühitinin dərinləşməsində, demokratik ənənələrin şaxələnməsində yenilik oldu.Sirr deyil ki, Yeni Azərbaycan Partiyasının formalaşdırılması və güclənməsi müasir dövrün çağırış və tələblərinə, eləcə də beynəlxalq təcrübəyə əsaslanır. Bu qüdrəti təmin edən öncül komponentlərdən biri də qadınların partiyanın ictimai-siyasi həyatında fəal iştirakı və özünəməxsus roludur. Bu gün ölkəmizdə dövlət-qadın siyasətinin böyük uğurla həyata keçirildiyi bir zaman kəsiyində partiya üzvlərinin əksəriyyəti qadınların təşkil etməsi də bu mənada başa düşüləndir. Hər bir ölkənin inkişafı, dövlətçiliyinin möhkəmləndirilməsi, şübhəsiz ki, intellektual gənc nəslin formalaşdırılması, habelə cəmiyyətin aparıcı simasına çevrilməsindən asılıdır. Bu xüsusda dünənin, bu günün və gələcəyin avanqard qüvvəsi sayılan Yeni Azərbaycan Partiyasında gənc üzvlərin sayı xüsusilə nəzərə çarpandır. 30 illik yubileyinə daha böyük inam, eləcə də qürurla hazırlaşan Yeni Azərbaycan Partiyasının 800 minə yaxın üzvünün mütləq əksəriyyəti də məhz gənclərdən ibarətdir. Bunlar həm də o gənclərdir ki, artıq ikinci ildönümü ərəfəsində olduğumuz şanlı Vətən müharibəsinin qazanılması, o cümlədən torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası və bayrağımızın bütöv Azərbaycanda dalğalanması naminə böyük şücaət, qəhrəmanlıq göstərmiş, bu müqəddəs amal uğrunda canlarını fəda etmişlər. Görkəmli filosof, elmdə Aristoteldən sonra ikinci müəllim adını qazanmış Əbu Turxan deyirdi ki, biz gələcəyə çatanda, məlum olur ki, onun mənzərəsi öncədən çəkilibmiş. Zaman bir daha təsdiq etdi ki, dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri onun hər zaman arzuladığı müasir və müstəqil Azərbaycan, eyni zamanda parlaq sabaha, perspektivli gələcəyə hesablanmış Yeni Azərbaycan Partiyasıdır. Qalib, məğrur və qədir bilən Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin əbədi və ölməz ideyarını hər zaman dərin məhəbbət, sonsuz sevgi və sədaqətlə yaşadacaqdır.



## "Xudafərin körpüsü Azərbaycanın tarixi incilərindəndir"

"27 il həsrətdən sonra Azərbaycanın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun şücaəti nəticəsində Xudafərin körpüsü işğaldan azad edildi. Bu körpü Azərbaycan memarlıq ənənəsinin bariz nümunəsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov bildirib.

Onun sözlərinə görə, XII-XIII əsrlərdə inşa edilmiş bu körpü Hindistandan başlayaraq Avropaya qədər uzanan həm siyasi, həm də iqtisadi körpü rolunu oynamışdır: "Xudafərin körpüsü hər bir azərbaycanlının qəlbində xüsusi iz buraxmış bir abidədir. Torpaqlarımın düşmən tapdağı altında olarkən biz bu körpüyə həsrətlə baxırdıq. Xudafərin körpüsünün həmçinir öz rəmzi mənası da var. Xudafərin körpüsü Azərbaycanı birləşirən bir dəyərdir. Təsadüfi deyil ki, ölkə başçısı İlham Əliyevin Qarabağa ilki səfərlərindən biri də Xudafərin körpüsünə olub. Səfər zamanı dövlət başçısı çox önəmli bayantlarla çıxış etdi. Xudafərin körpüsünün işğaldan azad olunması digər bölgələrimizin düşmənlərdən daha surətli təmizlənməsinə kömək etdi. Burada xüsusi vurğulamaq lazımdır ki, müzəffər Azərbaycan ordusu dəqiq və çevik şəkildə hərəkətə keçərək Xudafərin körpüsünün yanında olan infrastrukturlara heç bir ziyan verilmədən körpü düşməndən azad edildi. Hazırda orada su elektrik stansiyası, digər kommunikasiyalar inşa edilir. Artıq daimi olaraq Xudafərin Azərbaycan xalqının qəlbində yaşayacaq. Xudafərin körpüsü Azərbaycanın tarixi incilərindəndir. Qarabağın hər bir bucağı, o cümlədən Xudafərin körpüsü dövlətimiz tərəfindən göz bəbəyi kimi qorunacaq".

***Abutel İlhamqızı***

## "Fransa Ermənistanın vəkili rolunda çıxış edir"



"Ümumiyyətlə, Fransanın Azərbaycana və türk dünyasına qısqanclığı, qeyri-obyektiv münasibəti, aqressivliyi uzun illərdir sezilir. Baxmayaraq ki, Azərbaycan və Türkiyə Fransa ilə münasibətdə həmişə maraqlı olub və onlar normal əlaqələr üçün çalışıblar. Hətta Minsk Qrupu yaradılanda da Azərbaycan buna etiraz etmədi. Biz düşünmüşük ki, Fransa Avropanın aparıcı dövlətlərindən biridir və məsələyə ədalət prizmasından yanaşacaqlar, Azərbaycanın Ermənistanla bağlı problemlərində müəyyən obyektiv münasibət nümayiş etdirəcəklər. Minsk qrupunun fəaliyyəti dövründə məsələnin belə olmadığı aydın oldu". Bu sözləri SİA-ya açıqlamasında "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyi sədri Əhməd Abbasbəyli deyib.

Onun sözlərinə görə, Emmanuel Makron hakimiyyətə gəldikdə bütün maskalar yırtıldı: "Makron birbaşa Ermənistan tərəfinə üstünlük verməsini sübut etdi. O, Türkiyə və Yunanıstan problemlərində də "yuyulmamış qaşıq kimi" özünü ortaya atdı.

İnsan Fransa kimi dövlətlərin erməni lobbisindən bu qədər asılı olmasına inanmaq istəmir. Fransa bu günləri Avropada liderliyi üzərinə götürmək istəyir. Bu missiyanı daşımaq üçün öz müstəqil mövqeyini açıq şəkildə ortaya qoymaq lazımdır. Fransa ədaləti kənara atır və korporativ, dini maraqlardan çıxış edərək Ermənistanın mövqeyini müdafiə edir".

Əhməd Abbasbəyli sözlərinə belə davam edib: "Bu məsələ Fransanın öz aləmində kiçik bir uğurudur. Amma beynəlxalq səviyyədə bu ölkənin nüfuzuna təsir edir. Təsəvvür edin, nüfuzlu bir ölkənin prezidenti deyir ki, "Azərbaycan Qarabağı işğal edib". Bu həm ədalətsizlik, həm məlumatsızlıq, həm də beynəlxalq hüquq normalarının əleyhinə getmək deməkdir.

Azərbaycan Fransaya qarşı həddindən artıq güzəşt edib. Fransanı bu danışıq prosesindən kənarda qoymaq lazımdır. Fransa Ermənistanın vəkili rolunda çıxış edir. Bu mənada biz onu bitərəf, yaxud barışdırıcı dövlət kimi görmürük.

Biz Fransadan niyə çəkinməliyik?! Onlar hansı prosesdə bizim yanımızda olublar?! Fransa bizə nə verir, yaxud bizdən nə alır ki?! Bundan sonra tam rəsmi şəkildə mövqeyimizi bildirməliyik. Fransa hər hansı bir formada danışıqlar prosesində iştirak etmək istəyirsə, Azərbaycanın mövqeyini müdafiə edən digər bir tərəf də iştirak etməlidir".

***Ayşən Vəli***

SİYASİ RAKURS+ÖZƏL

**“İnqilablar mühəndisi” ayaması ilə demək olar ki, bütün dünyaya tanış olan amerikalı milyarder Corc Sorosun ermənipərəstlik siyasəti də kimsəyə sirr deyil. Ötən illər ərzində biz dəfələrlə bu şəxsin istər Ermənistana, istərsə də Qarabağdakı separatçı rejimə yüz minlərlə dollar qrant ayırmasının şahidləri olmuşuq. Və maraqlı məqamlardan biri də budur ki, guya Azərbaycanda ”siyasi təqiblərə” məruz qalmaqla Qərb ölkələrinə gedən saxta ”siyasi mühacirlər” də ölkəmiz və dövlətimiz əleyhinə fəaliyyətlərini məhz Sorosun ayırdığı vəsaitlər hesabına yürüdüblər.**





# Corc Soros Ermənistana və Qarabağ separatçılarına nə qədər vəsaitlər ayırıb



Bütün bu kimi faktlar isə regionda qeyri-sabitliyin yaranmasına və fəlakətlərin baş verməsinə yönələn sübutlardır ki, onların qarşısının alınması labüdlüyə çevrilib!

Belə fəaliyyətlərin sırasında bu və ya digər şəkildə erməni maraqlarına xidmət etmək kimi kirli faktlar da kifayət qədərdir. Misal üçün, bir müddət əvvəl Ermənistanla Azərbaycan arasındakı müəyyən olunmamış sərhəddə erməni təxribatının qarşısının alınması zamanı saxta və sübuta yetirilməmiş ”erməni əsirlərinin güllələnməsi” videosu üzə çıxar-çıxmaz həmin dırnaqarası azərbaycanlılar ermənilərdən betər hay-küylər qaldırmaqla Soros ağalarının təlimatını canla-başla yerinə yetirmiş oldular. Lakin bu, ayrıca mövzudur və qayıdaq əsas məsələyə...

## Real hesablamalarda isə həmin məbləğlər daha çoxdur

Beləliklə, Sorosun ”Açıq Cəmiyyət” adlı təxribatçı institutu bu gün də Ermənistanda fəaliyyətdədir və o da sirr deyil ki, ölkənin mövcud hakimiyyəti də bilavasitə Sorosun sayəsində və ”məxməri inqilab” adı altında əvvəlki iqtidarı hakimiyyət kürsüsündən kənarlaşdırıb. Artıq o da məlumdur ki, istər 44 günlük müharibə zamanında, istərsə də hazırkı dövrdə Ermənistanda fəaliyyət göstərən ”Açıq Cəmiyyət İnstitutu” 14 layihəyə, ümumilikdə 333 min (!) ABŞ dollarından çox qrant ayırıb. Real hesablamalarda isə həmin məbləğlər daha çoxdur və əslində göstərilən rəqəmlər simvolikdir, yəni vəsaitin gerçək miqyasları gizlədilmək məqsədini güdür. Qeyd edilən vəsait isə Ermənistanda və Qarabağda sırf Qarabağ erməniləri, yəni başqa dövlətin suveren ərazisində separatçılığın inkişafı ilə bağlı layihələrə ayrılıb. Ancaq faktlar yalnız bundan ibarət deyil. Hətta təşkilatın öz saytında bu qrantlarla bağlı məlumatlar ictimaiyyətə açıqdır. Bu siyahıya baxdıqda maraqlı məqamlar üzə çıxır.



Qeyd: Soros Fondu Ermənistanda 1997-ci ildən bəri fəaliyyət göstərir. İndiyədək müxtəlif layihələrə 63 milyon ABŞ dolları həcmində qrantlar ayırıb. Bu layihələr təhsil, səhiyyə, hüquq, siyasət, maliyyə və digər sahələri əhatə edir. Həmçinin, Ermənistan hakimiyyətində bu gün mühüm vəzifələrdə Soros Fondu ilə əlaqəli olan şəxslərin siyahısı mütəmadi olaraq mətbuatda dərc edilir. Bu siyahıya Təhlükəsizlik Şurasının katibi, parlamentdə olan deputatlar və bəzi komitə sədrləri, nazirlər və hüquq mühafizə orqanlarının rəhbərləri daxildirlər.

## Vəsaitlər ”İnsan hüquqları və humanitar hüquq pozuntularının aşkarlanması, müharibə cinayətinə dair sübutların toplanılması” adı altında Azərbaycan əleyhinə iş üçün istifadə olunub

İki il ərzində ”Açıq Cəmiyyət İnstitutu” tərəfindən Qarabağ separatçıları üçün ayrılan 333 min ABŞ dollarından çox vəsaitin cəmi 112 min dolları insanlara birbaşa yardım adı altında istifadə edilib. Bu vəsaitlərin daha böyük hissəsi, yəni 134 min dolları isə Azərbaycan əleyhinə işlərin aparılması üçün xərclənib. Daha dəqiq desək, vəsaitlər ”İnsan hüquqları və humanitar hüquq pozuntularının aşkarlanması, müharibə cinayətinə dair sübutların toplanılması” adı altında Azərbaycan əleyhinə iş üçün istifadə olunub.

Digər yerdə qalan vəsait isə Qarabağda konsertlərin təşkili, ”Qarabağ ermənilərinin Ermənistana inteqrasiyası” və digər məqsədlər üçün xərclənib.

Aşağıdakı siyahıda isə bu fonddan hansı proqramlar adı altında, hansı təşkilatların nə qədər qrant alması göstərilib.

”Humanitar yardım” proqramı:

”Martuni Qadınlar icması” Şurası - 31 600 ABŞ dolları

”Gorus” Mətbuat Klubu QHT - 33 500 ABŞ dolları

”Missiya Ermənistan” QHT - 37 500 ABŞ dolları

”Bərabər Hüquqlar üçün” QHT - 42070 ABŞ dolları

”Qadın hüquqları evi” - 10 000 ABŞ dolları

”Hələb vətənpərvər xeyriyyə” QHT - 30 000 ABŞ dolları

”Helsinki Vətəndaş Assambleyası” - 20 000 ABŞ dolları

”Huquq inkişaf və Müdafiə” Fondu - 15 000 ABŞ dolları

”Sərhədsiz hüquqların müdafiəsi” QHT - 17 000 ABŞ dolları

”Vətəndaş cəmiyyətinə dəstək” proqramı:

”Ermənistan korlar cəmiyyəti Musiqi Ansamblı” - 4 595 ABŞ dolları

”Hadruta Qayıdış” QHT - 25 000 ABŞ dolları

”Kaşatağa qayıdış” QHT - 15 000 ABŞ dolları

”İnsan hüquqları və qanunun aliliyi” proqramı:

”Strateji məhkəmə çəkişmə” mərkəzi - 25 000 ABŞ dolları

”Beynəlxalq və müqayisə hüququ” mərkəzi - 27 000 ABŞ dolları

”Hadruta qayıdış” və ”Kaşatağa qayıdış” təşkilatları (?!)

Qeyd edək ki, qrant alan təşkilatların əksəriyyəti Ermənistana aid olsa da, aralarında iki təşkilat diqqəti cəlb edir. Bunlardan biri ”Hadruta qayıdış”, digəri də ”Kaşatağa qayıdış” təşkilatlarıdır. Yəni fakt budur ki, separatizm və digər kirli məqsədlər hazırda da qüvvədədir və onların icrasında maraqlı olan tərəf bilavasitə Cors Soros və onun təşkilatıdır!

Beləliklə, daha bir fakt budur ki, ”Açıq Cəmiyyət İnstitutunun” müharibə cinayətində iştirak edən, qanunsuz məskunlaşma və azərbaycanlıların əmlaklarını, yurdlarını talamaqla məşğul olanların saxta təşkilatlara qrantların ayrılması məqsədi açıq-aşkar Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını dəstəkləmək məqsədini güdür. Bütün bu kimi faktlar isə regionda qeyri-sabitliyin yaranmasına və fəlakətlərin baş verməsinə yönələn sübutlardır ki, onların qarşısının alınması labüdlüyə çevrilib.

***Rövşən RƏSULOV***

# Azərbaycan Günəş enerjisindən necə yararlanır?

ARAŞDIRMA

**Mövcud hesablamalara görə, hər dəqiqə Yerə gələn günəş enerjisi bəşəriyyətin cari illik enerji tələbatını ödəməyə kifayət edir. 1970-ci illərdə SSRİ-də günəş elektrik stansiyalarından (çox geniş olmasa da) səhra rayonlarında istifadə olunurdu. Bununla belə, son vaxtlara qədər günəş enerjisi iqtisadi cəhətdən əsaslandırılmış bir addım kimi deyil, ekoloqlar üçün bir işarə kimi qəbul edilirdi.**

Bəşəriyyətin bütün tarixi boyu insanın istifadə etdiyi əsas enerji daşıyıcısı dəyişmişdir. 1970-ci illərdə nüvə enerjisinin çox yaxın gələcəkdə əsas enerji daşıyıcısına çevriləcəyinə dair optimist fikir üstünlük təşkil etdiyindən onun istehsalı o zaman sürətlə artmışdır. Lakin 1979-cu ildə ABŞ-dakı Three Mile Island zavodlarında və xüsusilə 1986-cı ildə SSRİ-də Çernobıl AES-da baş verən qəzalar nüvə enerjisi texnologiyalarının real risklərini və qüsurlarını göstərdi. O dövrdə ortaya çıxan ekoloji hərəkat enerjinin gələcəyini külək, günəş və Yerin istiliyi kimi bərpa olunan enerji mənbələrində görürdü.

Bu gün artıq dünya enerjisinin strukturunda əsas enerji daşıyıcısını ayırmaq mümkün deyil. Qaz və bərpa olunan enerji mənbələrinin payı artıb, kömür və neftin payı azalıb, nüvə enerjisində artım yoxdur. Qlobal enerji sektoru getdikcə şaxələndirilir ki, bu da müxtəlif enerji növləri arasında rəqabətin inkişafına kömək edir.

Karbohidrogen ehtiyatlarının erkən tükənməsi təhlükəsi, onların hasilatı və nəqli xərclərinin artması, ənənəvi enerjidə yeni texnoloji sıçrayışların olmaması fonunda bərpa olunan enerji mənbələrinin rəqabət qabiliyyəti artmağa başlayıb.





## Günəş enerjisinin təkamülü və enerjinin qiyməti

Bərpa olunan mənbələrə əsaslanan bütün enerji növləri arasında günəş enerjisi ən sürətlə böyüyür. Məsələn, 2010-cu ildə dünyada 22,7 QVt (qiqavat), o cümlədən Almaniyada 7, İtaliyada 5,6, Çexiyada 1,2, Yaponiyada 1 fotovoltaik elektrik stansiyaları tikilmişdir. 2013-cü ilin mart ayına olan məlumata görə, dünyada günəş elektrik stansiyalarının (GES) ümumi quraşdırılmış gücü 100 GVt-a çatıb. Hesablamalara görə, 2030-cu ilə qədər bu dəyər 1480 GVt-a, 2050-ci ilə isə 4600 GVt-a çata bilər.

Günəş enerjisinin sürətlə artması elektronika, materialşünaslıq və texnologiyanın inkişafı olmadan mümkün olmazdı. Əgər əvvəllər günəş elementlərinin istehsalı üçün yeganə material polikristal silikon idisə, indi birkristallı, amorf silikon və digər yarımkeçiricilərdən də istifadə olunur.

1970-ci illərin əvvəllərindən SSRİ, Almaniya və ABŞ silisium istehsalı üçün yeni texnologiyalar hazırlayırlar. 1980-ci illərin ortalarında alman və amerikan şirkətləri ultra təmiz kvarsitlərin karbotermik reduksiyasına əsaslanan yüksək təmizlikdə "günəş" silisiumunun istehsalı texnologiyasının yaradılmasını elan etdilər. 1990-cı illərdə bu texnologiyadan istifadə etməklə əldə edilən laboratoriya silisium nümunələrinin səmərəliliyi "xlorosilan" silisiumundan hazırlanmış fotovoltaik elementlərin səmərəliliyi ilə müqayisə oluna bildi.

Ümumiyyətlə, yeni texnologiyalar günəş panellərinin dəyərini əhəmiyyətli dərəcədə azaltmağa və onlarla birlikdə onların köməyi ilə istehsal olunan elektrik enerjisinin dəyərini azaltmağa imkan verdi. 1960-cı illərin sonlarında fotovoltaik panelin qiyməti hər kilovat gücün təxminən 100.000 ABŞ dolları idisə, indi quraşdırılmış gücə görə 2000-dən 3000-ə qədərdir.

İspaniyanın Sevilya yaxınlığındakı Planta Solar 10 günəş elektrik stansiyası dünyada ilk kommersiya termodinamik qüllə zavodudur. 624 iri fırlanan heliostat güzgüləri ümumi gücü 11 MVt olan elektrik enerjisi istehsal edir.

Günəş panellərinin dəyərini azaltmağın başqa bir yolu istehsal olunan enerjinin hər meqavatına silisium istehlakını azaltmaqdır. 2006-cı ildən 2008-ci ilə qədər yeni, enerjiyə qənaət edən texnologiyaların tətbiqi sayəsində quraşdırılmış gücün hər vattına silisium istehlakı 10-dan 8,7 q/Vt-a qədər azalmışdır. 2008-ci ildən bəri fotovoltaik panellərin yaratdığı bir meqavatın dəyəri 60% ucuzlaşıb.

Günəş enerjisinin ən mühüm vəzifəsi fotokonversiyanın səmərəliliyini artırmaqdır. Hazırda onun orta dəyəri təxminən 16% təşkil edir. Eyni zamanda, dünyanın bir çox laboratoriyaları günəş enerjisinin birbaşa elektrik enerjisinə çevrilməsinin 34%-dən 45%-ə qədər səmərəliliyinə nail olduqlarını artıq bəyan ediblər.

Elektrik şəbəkələrinə qoşulmuş günəş modullarının quraşdırılmış gücü əsasən Yaponiya, Almaniya və ABŞ-da cəmlənib. Günəş istilik enerjisində, sözdə termodinamik çeviricilərdən istifadə olunur. Onlarda günəş enerjisi əvvəlcə istiliyə, sonra mexaniki enerjiyə, sonra isə elektrik enerjisinə çevrilir.

Bu günə qədər gücü 300 MVt olan ən böyük günəş istilik elektrik stansiyası İspaniyada (Əndəlus əyaləti) tikilmişdir. ABŞ-da ən böyük günəş elektrik stansiyaları Nevada (60 MVt), Kaliforniya (250 MVt) və Arizona (280 MVt) ştatlarında yerləşir.Qonşu ölkəmiz olan Rusiyada ilk günəş batareyaları yarım əsr əvvəl xüsusi olaraq kosmik gəmilər üçün hazırlanmışdır.

Buna baxmayaraq, Rusiyada günəş enerjisinin mövcud texniki və təbii potensialından olduqca zəif istifadə olunur. Hazırda Rusiyada istifadəyə verilmiş günəş enerjisi istehsal güclərinin ümumi həcmi, müxtəlif hesablamalara görə, 5 MVt-dan çox deyil. Günəş enerjisinin tam inkişafı üçün dövlət dəstəyi lazımdır. Xüsusi tariflər, güzəştli vergitutma və s. vasitəsilə sənayenin stimullaşdırılması mexanizmlərinin geniş spektri mövcuddur ki, onların tətbiqi xarici ölkələrdə sənayenin xeyli yüksəlməsinə səbəb olmuşdur.



## Bəs Azərbaycan Günəş enerjisindən nə vaxtdan istifadə etməyə başlamışdır?

Ölkəmizdə günəş enerjisindən istifadə qədim tarixə malikdir. Belə ki, 1983-1984-cü illərdə Azərbaycan Respublikası Müdafiə Sənayesi Azon zavodunun Kristal Sexinin bazasında monokristal silisium lövhələr üzərində fotoelektrik çeviricilərinin günəş elementləri istehsal olunmuşdur.

Yer səthinə düşən günəş enerjisinin miqdarı bütün neft, qaz, kömür və digər yanacaq ehtiyatlarından çoxdur. Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, Günəş qurğuları işləyən zaman parnik effekti yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır.

Günəş enerjisindən passiv və aktiv qurğuların vasitəsi ilə istifadə etmək mümkündür. Passiv sistemlərdə günəş enerjisi şüalanmanın, istilikkeçirmənin və təbii ventilyasiyanın köməyi ilə ötürülür. Aktiv sistemlərdə isə günəş şüaları ilə qızan səthin istiliyi istilikdaşıyıcısının vasitəsilə digər qurğuya nəql edilir. Bu zaman istiliyi qəbul etmək üçün günəş kollektorlarından istifadə edilir. Günəş panelindən maksimun elektrik enerjisi almaq üçün günəşli hava daha yaxşıdır. Amma bu o demək deyil ki, buludlu, yağışlı havada enerji istehsal edilməyəcək. Günəş panelləri ən buludlu havada belə 50 faiz güclə işləyir.

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, Azərbaycanda günəş şüalanmasının davamiyyəti 2400-3200 saata qədər müşahidə olunur.

Alternativ və bərpa olunan enerji mənbələri hesabına quraşdırılacaq yeni generasiya güclərində günəş enerjisinin xüsusi çəkisi 73% (günəş-istilik 58%, günəş-elektrik 15%) təşkil edir. Azərbaycan Respublikasında günəş enerjisinin iqtisadi potensialı 20,000 meqavat həcmində qiymətləndirilir.

Qəbul edilmiş dövlət proqramları və struktur islahatları nəticəsində 2009-cu ildən başlayaraq dövlət və qeyri-dövlət müəssisələri tərəfindən ölkəmizdə bu istiqamətdə işlər görülüb, yeni elektrik stansiyaları tikilib istifadəyə verilmişdir. Bunlara Qobustan, Suraxanı, Pirallahı, Samux və Qaradağ rayonu, Sumqayıt şəhəri, və Naxçıvan MR Babək rayonunda istifadəyə verilmiş günəş elektrik stansiyalarını nümunə göstərə bilərik.

Günəş enerjisinin bahalı (qiymətin yüksək olması) bir mənbə kateqoriyasına aid olduğuna dair ümumi bir fikir mövcuddur. Alınan enerjini toplamaq üçün istifadə olunan elektrik akkumulyatorlarının yüksək qiymətlərdə olması bu fikri təsdiq edir. Bu mənbənin çatışmazlığı panellərin çox yer tutub, az gücdə enerji istehsal etməsidir. Günəş enerjisinin bir çatışmazlığı da var - o da atmosferin vəziyyətindən, günün və ilin vaxtından asılılığıdır.

Bütün bu çatışmazlıq və problemlərə baxmayaraq günəş enerjisindən istifadənin geniş tətbiqi ölkədə enerjidən qənaətlə və səmərəli istifadə olunmasına, yanacaq resurslarının ixracının artmasına, ətraf mühitə atılan zərərli maddələrin həcminin azalmasına və yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" da təşkil olunmuşdur. Tədbirlər Planına əsasən, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, "Azərişıq" ASC ilə birlikdə 2022-2023-cü illərdə damüstü günəş enerjisi sistemlərinin quraşdırılması üzrə tələblər müəyyən edilməsi üzrə təhlillərin aparılmasını, tələblərin müəyyən edilməsini, tələblərin razılaşdırılması və təsdiq edilməsini təmin etməlidir.

***Havar Şəfiyeva***

# Pavel Klaçkov: “Ermənistanın taleyini onun seçimi müəyyən edəcək”

Rusiya politoloqu: Qərb missiyası Ermənistan-Azərbaycan sərhədində münaqişə yarada bilər ki, daha sonra Azərbaycanı günahlandırsın və onun mövcud olmayan “aqressivliyi” tamam başqa səviyyədə müzakirə olunsun









Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filialının direktoru Pavel Klaçkov ”Moskva-Baku” portalına müsahibəsində Avropa İttifaqı missiyasının Ermənistan və Azərbaycan sərhədinə göndərilməsinin və region üçün nə vəd edə biləcəyi haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Pavel Vladimiroviç, Aİ xarici işlər nazirləri Lüksemburqda keçirilən iclasda Azərbaycanla sərhəddə Ermənistana 40 müşahidəçinin göndərilməsini təsdiqləyiblər. Maraqlıdır ki, elə bu günlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov həmkarının Moskvanın erməni və KTMT-nin sərhəddə sentyabr eskalasiyasına yetərincə reaksiya verməməsi ilə bağlı növbəti tənqidinə cavab olaraq, açıq şəkildə bildirdi ki, İrəvanın özü Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasını bu zonada görmək istəməyib. İndi görürük ki, İrəvanın sərhədə beynəlxalq missiya göndərmək çağırışları gerçəkləşir...***

- Təəssüf ki, etiraf etməliyəm ki, Ermənistan getdikcə Rusiyaya və KTMT-yə qarşı loyallığı azalır. Bu, artan xarici təsir, Rusiya yaxınlığında daha bir qaynar nöqtə arzusunda olan Qərb bloku ölkələrinin təzyiqi altında baş verir. Belə qaynar nöqtəni qızışdırmaq Qərbin planına görə, Rusiyanın resurslarını, onun hərbi qüvvələrini vəziyyətin həlli üçün müdaxilə etməyə yönəltməlidir. Ona görə də Qərb Zaqafqaziyada münaqişə yaratmağa çalışır.

Rusiya bu regionda sülhün və sabitliyin qorunub saxlanması üçün əlindən gələni edir, lakin bizim qarşı tərəflərin barışmasına yönəlmiş səylərimiz, təəssüf ki, heç də həmişə uğurlu alınmır, xüsusən də bu işdə Ermənistan tərəfinin mövqeyini anlayırıq. ABŞ-ın Ermənistandakı QHT-ləri necə qidalandırdığını görürük və son vaxtlar respublikada Rusiya əleyhinə mitinqləri davamlı olaraq müşahidə edirik. İrəvan ikili oyun oynayır, Qərbin piyadası kimi Rusiyadan yan keçməyə çalışır. Ancaq bu yaxşı bir şeyə səbəb olmayacaq. Axı Qərb dövlətləri Ermənistanı əməkdaşlıq etmək istədikləri suveren ölkə kimi qəbul etmirlər. Ermənistan onlar üçün anti-Rusiya manevrləri meydanıdır, öz piyadalarını hərəkət etdirə biləcəkləri bir meydandır. Məqsəd Rusiyanın Zaqafqaziyada qıcıqlandırıcı olmasıdır. Amma Ermənistanın bu yanaşması və Qərbə boyun əymək istəyi respublika üçün çoxlu problemlər vəd edir.

Aİ missiyasının 2 ay davam edəcəyi açıqlanır. Amma başa çatandan sonra İrəvanın tələbi ilə qeyri-müəyyən müddətə Ermənistan-Azərbaycan sərhədində qalacağı deyilsə, təəccüblənmərəm. Aİ bölgəyə belə bir şəkildə, necə deyərlər, nüfuz edən kimi orada uzun müddət möhkəmlənməyə çalışacaq. Aİ bütün bunları Qərb ölkələrinin sülh prosesinə fayda gətirmək istədikləri bir şey kimi təqdim etsə belə, buna inanmamalısınız. Qərbin fəaliyyəti həmişə qanlı qarşıdurmanı ortaya çıxarmaq istəyidir. Mən tam etiraf edirəm ki, Aİ mülki müşahidəçilər adı altında münaqişə yarada bilər.

Qərbi onlardan uzaq olan Zaqafqaziyada yaşayan ölkələrin və xalqların taleyi narahat etmir. Rusiya üçün isə bu, tarixi, çoxəsrlik yaxın əlaqələr olan regiondur. Motivlərin, tarixi fonun fərqliliyi hadisələrin belə inkişafını və maraqların toqquşmasını diktə edir.

Diqqət son vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın yeni eskalasiya raundunu ”açmaq”la bağlı müntəzəm bəyanatlarına yönəldilir. Sərhəddə Avropa missiyasının yerləşdirilməsinin yaxınlaşması ilə belə bir fikir yaranır ki, bu cür bəyanatlar vəziyyətə uyğunlaşır. Qərb missiyası orada olan kimi Ermənistan sərhəddə münaqişə yarada bilər ki, bu missiya daha sonra Azərbaycanı günahlandırsın və onun mövcud olmayan ”aqressivliyi” tamam başqa səviyyədə müzakirə olunsun. Onlar təkcə ”təcavüz” deyil, həm də insan hüquqları ilə bağlı ”hekayələri” xatırlayacaqlar və s.

***- Və burada Makronun ötən gün verdiyi, guya Rusiyanın Qarabağ münaqişəsindən öz problemlərini həll etmək və hamını parçalamaq üçün istifadə etdiyi, son illər Azərbaycanın xeyrinə "oynadığı" barədə tam qalmaqallı açıqlamaları da əlavə olunur. Eyni zamanda Fransa prezidenti bəyan edib ki, Paris Ermənistanı tərk etməyəcək... Makronun bəyanatlarına təkcə Rusiya Xarici İşlər Nazirliyi deyil, Putin və Medvedyev də reaksiya verib...***

- Makronun davranışı heç bir məntiqlə, hərəkətlərin düşüncəliliyi ilə seçilmir. Fransa daha ciddi və müdrik siyasətə layiqdir. Əvəzində Makronun tələskliyini, təəccüb doğurmaya bilməz açıqlamalarını görürük. O, qabağa baxmır. Ermənistana bu cür səmimi dəstək, təbii ki, Fransada güclü erməni diasporunun olması ilə izah olunur. Amma Fransanın özünün mövqeyinə açıq-aşkar mənfi təsir göstərən belə açıq bəyanatlar vermək normal deyil. Əslində təəccüblənəcək bir şey yoxdur. Bu siyasət tərzini bu gün Qərbdə müstəqil olmayan siyasətçilərin ayaqda saxlaması diktə edir. Onların ABŞ naminə oyun oynamaqdan başqa seçimləri yoxdur. Onların etdiklərini gələcək nəsillər qınayacaq.

Avropa İttifaqı özünü tamamilə gözdən salıb və bunu digər məsələlərlə yanaşı, Cənubi Qafqaz siyasətində də görmək olar. Onlar Cənubi Qafqaza, guya dinc düşüncələrlə gəlirlər. Və buna fəal şəkildə inandırmağa çalışırlar, etibarlılıq üçün demək olar ki, özlərininki kimi qəbul etməyə çalışdıqları Rusiyanın nailiyyətlərindən istifadə edirlər. Bəs nəticə nədir- Makronun bəyanatı kimi bu qəbildən olan bəyanatlar Qərbin ”sülhpərvər” maskalarını qoparır. Nensi Pelosinin Ermənistanda verdiyi bu cür bəyanatlar maskaları çıxarır. Bütün bunlar onu göstərir ki, Qərbin Cənubi Qafqaz dövlətlərinin xeyrinə hərəkət etməsi fikri çəhrayı rəngli eynək kimi şeydir. Nəticədə biz hadisələrin əslində necə olduğunu və Qərbin əsl vəzifələrini görürük. Hətta Fransa prezidentinin bu cür bəyanatlarından sonra Qərbin hələ də deqradasiyası üçün yeri var. Düşünürəm ki, gələcəkdə biz hələ Avropa İttifaqının dağılmasının şahidi olacağıq. Onda daha məsuliyyətli, mən deyərdim, daha çox vətənpərvər siyasətçilər olacaq. Mən ABŞ-dan asılı olmayan daha müstəqil Avropa görmək istərdim. Bir də ki, suveren, müstəqil olmalı olan ölkənin lideri əslində ona deyilənləri yerinə yetirəndə- hansı inamdan, şəffaflıqdan, konstruktivlikdən danışmaq olar.

Əgər Fransa Zaqafqaziyada belə davranarsa, 27 ölkə Aİ missiyasını təsdiqləsə, o zaman Ermənistanla Azərbaycan sərhədində yerləşəcək bu qondarma missiyanın bütün məsələləri erməni tərəfinin xeyrinə həll edəcəyi ehtimalı yüksəkdir. . Onların vəzifəsi, digər şeylərlə yanaşı, həm Türkiyəni, həm də İranı hərbi münaqişə üçün bölgəyə çəkməkdir. Beləliklə, ”ağır silahların” istifadəsi ilə hər şey bir arada toqquşur. Rusiya bunun qarşısını almaq üçün hər cür səy göstərəcək.

Bu gün Rusiya və Türkiyənin əməkdaşlığı getdikcə gücləndirdiyini, konsolidasiyanın qaçılmaz olduğunu, Qərbin iştirakı olmadan yeni ittifaqların təşkili faktını nəzərə alsaq, çox güman ki, Moskva və Ankara Cənubi Qafqaz sülhə nail olmaq üçün vahid cəbhə kimi çıxış edəcəklər.

***- Azərbaycan prezidenti Makronun açıqlamalarına reaksiya verərək, Fransa prezidentinin tezislərini tənqid edərək, Rusiyanın da müdafiəsinə qalxdı. Bundan əlavə, Əliyev qeyd edib ki, bəzi dövlətlər sərhəddə sentyabrın eskalasiyasını dayandıranın Rusiya deyil, özləri olduğunu təqdim etməyə çalışsalar da, bu, doğru deyil. Əliyevin Moskvaya qarşı bu cür jestlərini necə qiymətləndirmək olar?***

- Əliyev başa düşür ki, Rusiya həqiqətən də regionda eskalasiyanın olmamasında, vəziyyətin tam və uzunmüddətli həllində, sülhün gəlməsində maraqlıdır. Ona görə də, Əliyev sadəcə olaraq nəyin nə olduğunu təsdiqlədi. Və o bildirib ki, Fransa artıq nizamlamada vasitəçi ola bilməz- onun açıq-aydın balanssız mövqeyinə dair həddən artıq çoxlu nümunələr var idi və Makronun bəyanatlarından sonra Ermənistan-Azərbaycan nizamlanması üzrə Bakı və Parisi müzakirə etmək artıq prinsipcə mümkün deyil.

***- Sülh müqaviləsi imzalamamaq və sülhə doğru addımlamamaq üçün Aİ missiyası Ermənistan üçün vacibdirmi?***

- Belə bir qərar sadəcə olaraq Ermənistanın üzərinə qoyulub. Əslində, Ermənistanın fikri Qərb kuratorları tərəfindən nəzərə alınmır. Sadəcə olaraq, bu ölkə istifadə olunur, İrəvanın özünü necə aparması diktə olunur. Ermənistan müstəqil ölkə deyil. İstər Rusiya ilə, istərsə də onun düşmənləri ilə birgə ola bilər. Onun kiminlə olacağı seçimi onun taleyini müəyyən edəcək.

Ermənistanın baş naziri isə ya ”biz sülh tərəfdarıyıq” deyəndə, ya da hansısa şərtlər qoyanda sülh prosesi dinamikləşir - bu, yenə ona görədir ki, Ermənistan dövlət kimi möhkəm təməllər üzərində dayanmır. Ona görə də ölkəyə başçılıq edən siyasətçi küləyin əsdiyi yerə dönür.

Təəssüf ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin yaxın gələcəkdə imzalanmayacağı ehtimalı daha çoxdur. Tarixi perspektivdə Rusiya bu istiqamətdə yenidən özünü bütün gücü ilə göstərəcək. Və Aİ-nin vasitəçiliyi ilə Azərbaycan heç nəyə imza atmayacaq - öz milli maraqlarına xəyanət etməyəcək.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” çərçivəsində hazırlanıb.

SON SƏHİFƏ
SƏS
19 oktyabr 2022-ci il

# Neymar:

## "Real"a keçə bilərdim, amma..."



**PSJ-nin futbolçusu Neymar 2013-cü ildə "Santos"dan "Barselona"ya transfer olunarkən "Real"dan da təklif alıb. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, bu barədə 30 yaşlı hücumçu özü bildirib. O deyib:**

"Başqa klubların mənimlə maraqlandığımdan xəbərim var idi. Amma "Barselona"ya keçmək arzum idi. 2013-cü ildə "Santos"u tərk edib "Barselona"ya getməyə qərar verdim. Çox variantım var idi, amma uşaqlıqdan "Barselona"da oynamaq arzusunda idim. Mən həmişə ürəyimə qulaq asıram. "Real"dan təklif aldığımı xatırlayıram. Amma digər variantları xatırlamıram. Son anda "Real" və "Barselona" arasında seçim etməli oldum, amma ürəyimi dinlədim və Barselonanı seçdim".

Qeyd edək ki, Neymar 2013-2017-ci illərdə "Barselona"da oynayıb. O, 2017-ci ildə 222 milyon avroya PSJ-yə keçib.

## Su ilə boğaz yaxalayan zaman nələr baş verir?

Bir çox analar uşaqlarını duzlu su ilə qarqara eləməyə məcbur edirlər. Bu əksər hallarda boğazda iltihabi proseslər baş verdiyi zaman olur. Duzlu su ilə qarqara etmək boğazda xəstəliyin əlamətlərini azaldır və xəstənin ümumi vəziyyətini yüngülləşdirir. SİA xəbər verir ki, duzlu su dedikdə, dəniz duzu qatılmış su nəzərdə tutulur. Bəs bu su ilə boğaz yaxalayan zaman nələr baş verir?

Dəniz duzu qatılmış su boğaz ağrısı zamanı istifadə edilən ən təbii müalicə vasitəsidir. Bu boğazın kimyəvi təmizlənməsidir. Az miqdar suda həll edilmiş duz bakteriya əleyhinə təsir göstərərək iltihab əlamətlərini aradan qaldırır. Bu səbəbdən də boğazda xəstəliyin əlamətləri azalır və ağrı hissi aradan qalxır. Dəniz duzunun orqanizm üçün faydaları çoxdur. Dəniz duzu qatılmış duyun isə orqanizmə 5 faydası var.



**1. Boğazı təmizləyir**

Dəniz duzu qatılmış su boğazın turşuluq balansını neytrallaşdırır və boğazı təmizlyir. Duzlu su ağız boşluğundakı bakteriyaların azalmasına səbəb olur.

**2. Duzlu su boğazda Ph balansının normallaşmasına səbəb olur.**

PH balansının normallaşması bakteriyaların məhvinə səbəb olur və boğazın normal pH səviyyəsinin saxlanılmasına səbəb olur.

**3. Burun tutulmasının qarşısını alır**

Mütəxəssislər duzlu suyun sinusit əlamətlərini aradan qaldıra bilməsini sübut ediblər. Gün ərzində 3-4 dəfə boğazı duzlu su ilə qarqara etmək burun yollarının açılmasına və sinusitin sağalmasına səbəb olur.

**4. Diş çürümələrinin qarşısını alır.**

Araşdırmalar duzlu su ilə qarqara etməyin dişlər üçün faydalı olduğunu sübut etmişlər. Duzlu su ağız boşluğundakı bakteriya və mikrobları məhv edətək dişlərdə çürümələrin qarşısını ala bilir.

**5. Qan dövranını yaxşılaşdırır.**

İsti duzlu su ilə qarqara etmək boğazdakı sağalma prosesini sürətləndirir. İsti duzlu su boğaz nahiyəyə qan axınını sürətləndirir və zədələnmiş nahiyənin tez sağalmasına səbəb olur.

Mütəxəssislər qarqara üçün hazırlanan məhlulda duzun miqdarının çox olmasını məlləhət bilirlər.

## ŞOK:

### 9 ayda yol qəzalarında 143 nəfər ölüb!

"Ötən 9 ay ərzində paytaxt ərazisində 220 piyadavurma hadisəsi qeydə alınıb, 102 nəfər ölüb, 136 nəfər yaralanıb". SİA xəbər verir ki, bu sözləri Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru polis mayoru Araz Əsgərli bildirib.

DYP rəsmisi deyib ki, bu ilin yanvarın 1-dən oktyabrın 1-dək paytaxt ərazisində ümumi qəzalardan 3-ü motosiklet nəqliyyat vasitəsi ilə baş verib, 1 nəfər vafat edib, 4 nəfər xəsarət alıb: "Moped nəqliyyat vasitəsi ilə 10 hadisə qeydə alınıb, 1 nəfər ölüb, 10 nəfər yaralanıb. Velosipedlərlə 4 hadisə olub, 1 nəfər ölüb, 3 nəfər xəsarət alıb. 16 yaşadək (uşaq da daxil) yeniyetmələr arasında 23 hadisə olub, 6 nəfər ölüb, 18 nəfər yaralanıb. Yük avtomobillərinin iştirakı ilə 11 hadisə qeydə alınıb, 9 nəfər ölüb, 7 nəfər xəsarət alıb. İctimai nəqliyyatda 8 hadisə baş verib, 1 nəfər ölüb, 9 nəfər yaralanıb".

Qeyd edək ki, ötən 9 ay ərzində paytaxt ərazisində 337 yol-nəqliyyat hadisəsi qeydə alınıb, 143 nəfər ölüb, 264 nəfər isə xəsarət alıb.



## Soyuq havalar nəyə görə depressiyaya səbəb olur?

**"Payız fəslində adətən insanlarda depressiyaya meyillilik artır. Bu, bəzən havanın dəyişkən olması, bəzən isə hormonal dəyişikliklərlə əlaqəli olur". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. O qeyd edib ki, ümumiyyətlə təkcə payız fəslində deyil, həm də yaz fəslində də bu sindromlar özünü göstərir: "Çox vaxt birdən-birə isti havadan soyuq havaya keçmək və ya soyuq havadan isti havaya keçmək insanların psixoloji vəziyyətlərinə təsir göstərir. Həmişə fəsil dəyişkənliyi depressiyaya meyilli olan insanlara fərqli təsir göstərir. Amma bu çox vaxt xarakterə bağlı olur. Xarakteri dəyişkən olan insanlara bu fəsil dəyişikliyi fərqli təsir edir. Bununla mübarizə aparmaq üçün ən yaxşı üsul həmin vaxtlarda sevdiyimiz işlə daha çox məşğul olmaqdır. Daha çox istirahətə üstünlük verməliyik, özümüzü fiziki olaraq çox yormamalıyıq, neqativ xəbərlərdən uzaq durmalıyıq. Həmçinin mübahisəli məsələlərdən uzaq durmalıyıq. Yəni bunlara nail olmağı bacarsaq həmin o sıxıntı, narahatlıq aradan qalmış olar. Əlbəttə ki, bu hal ancaq psixoloji olmur, bəzən psixatrik, nevroloji müalicə də lazım olur. Ona görə də həkimlərlə, nevropatoloqlarla, psixoloqlarla və psixiatrlarla məsləhətləşmək lazımdır".**



*Abutel İlhamqızı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600